# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

15 İYUN ŞƏNBƏ 2024 № 22 (4173) Qiymәti - 40 qәpik www.kaspi.az

‘KASPİ’ QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB




**15 İYUNDAN BAŞLAYAN MÜSTƏQİLLİK YOLUMUZ DÖNMƏZ MAHİYYƏT ALIB**

# TARİXİMİZƏ QIZIL HƏRFLƏRLƏ YAZILAN GÜN

15 iyun - Qurtuluş Günü Azərbaycan xalqı, dövləti üçün qaranlıqdan aydınlığa, uçurumdan zirvələrə, məğlubiyyətdən qələbəyə, inamsızlıqdan ümidə aparan yolun başlanğıcıdır. Bu tarix bir xalqın taleyinin iki fərqli hissəsini birləşdirir.



**XALQIN TALEYİNDƏ MÜHÜM DÖNÜŞ ANI**

Elə günlər var ki, onlar Azərbaycan xalqının taleyində mühüm dönüş anı hesab edilir. Belə günlərdən biri də 15 İyun - Qurtuluş Günüdür. Xalqımızın təkidli tələbi ilə müstəqillik tariximizə qızıl hərflərlə yazılan Ulu Öndər Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışı “olum, ya ölüm” savaşı verən dövlətimizin yenidən doğuluşudur. Bu dəyərləndirmənin heç də təsadüf olmadığını həmin tarixdən 31 il keçəndən sonra daha yaxşı anlayırıq.

**ARZULADIĞI AZƏRBAYCANI QURURUQ**

Ulu Öndərin layiqli davamçısı, müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan çox böyük uğurlara imza atıb. İndi biz qalib xalq, regionun lider dövlətiyik. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və Qurtuluş Günü ilə başlayan Zəfər yolunda Prezident İlham Əliyevin rəhbərliyi ilə daha güclü Azərbaycan üçün inamla irəliləyərik.

SƏHİFƏ 3-də

**AZƏRBAYCAN 15 İYUNDAN ƏVVƏL VƏ SONRA**

**Qurtuluş Gününü Azərbaycan xalqı üçün bu dərəcədə mühüm edən məqamlar hansılardır? Bu suala cavab tapmaq üçün Azərbaycanda 15 iyundan əvvəl və sonra yaşananlara bir daha nəzər salmaq kifayətdir.**



## FƏDAKARLIQ VƏ SEVGİ BAYRAMI

- İyunun 16-17-də İslam aləminin ən müqəddəs bayramlarından biri olan Qurban bayramını qeyd edəcəyik. Bu bayram hər il hicri təqvimi ilə zilhiccə ayının 10-cu günündən başlayır, bir neçə gün davam edir. Qurban bayramı qardaşlığı, dostluğu, fədakarlığı, xeyirxahlığı ehtiva edir.
- Qurban kəsmək ilk növbədə müsəlman olmağın göstəricisidir. Əgər insan borc içində deyilsə, gündəlik tələbatını ödəməklə yanaşı, kənarda əlavə pul toplamaq imkanı varsa, qurban kəsmək onların gündəlik, aylıq yaşayışına təsir göstərmirsə, kəsə bilər.

SƏHİFƏ 7-də

## EMMANUEL MAKRONUN SİYASİ FİASKOSU



- Avropa Parlamentinə keçirilən seçkilər proqnoz edildiyi kimi, sağ və radikal kəsimin üstünlüyü ilə başa çatıb. Avropa İttifaqının iki ən qüdrətli dövləti - Fransa və Almaniyada ultrasağlar üstünlüyü ələ almağa müvəffəq olublar.

SƏHİFƏ 6-da



## “SÜNİ İNTELLEKT İNSANI AĞIR ƏMƏKDƏN QURTARIR”

- Hamlet İsaxanlı: “Kiminsə “Azərbaycanda bir universitet niyə Oksfordla yarışmır” deməsi gülməlidir. Çünki Oksford 800 ildir qurulub. Üstəlik, heç Almaniyada, Fransada da Oksforda bənzəyən universitet yoxdur. Çalışmalıyıq ki, Oksford universiteti hansı yolla gedirsə, biz də ona bənzər olan bir yolla gedək”.

SƏHİFƏ 8-9-da

## KİRAYƏ BAZARINDA DƏYİŞİKLİK OLACAQMI?

- Adətən yay aylarında tədris ilinin başa çatması ilə bağlı Bakının kirayə mənzil bazarında ucuzlaşma qeydə alınırdı. Lakin son illərdə bu tendensiya zəifləyib. Ekspertlər bu yay da ciddi ucuzlaşma proqnozlaşdırmırlar.

SƏHİFƏ 13-də

## Azərbaycan teatrının kraliçası



Xalq artisti Amaliya Pənahova plastikası, səsinin məlahəti, yaratdığı obrazların gözəlliyi ilə tamaşaçılarını ovsunlayırdı. Sənət dostları onun fitri istedadını, qayğıkeşliyini, işinə vurğunluğunu indi də unuda bilmirlər.

SƏHİFƏ 15-də

## Yığmamızda Fernandu Santuş dövrü



Baş məşqçi vəzifəsinə tanınmış portuqaliyalı mütəxəssis Fernandu Santuş gətirilib. Onunla 3+1 illik müqavilə imzalanıb. Bakıda keçirilən təqdimat mərasimində yeni baş məşqçi iddialı açıqlamalar verib, uğur vəd edib.

SƏHİFƏ 16-da



# Prezident Azərbaycan xalqını təbrik edib

Prezident İlham Əliyev Qurban bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib. AZƏRTAC xəbər verir ki, xalqımızı və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımızı müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edən dövlətimizin başçısı bildirib: "Dünya müsəlmanlarının mənəvi həmrəyliyinin təcəssümü olan Qurban bayramında mömin insanlar Allah və din yolunda hər cür fədakarlığa hazır olduqlarını nümayiş etdirmək fürsəti qazanır, Uca Yaradana yaxınlığın sevincini yaşayırlar.

Bəşər mədəniyyətinə və elmi-fəlsəfi fikir xəzinəsinə misilsiz töhfələr vermiş Azərbaycan xalqının dünyagörüşünün təşəkkülündə və milli-mədəni inkişafında İslam dini mühüm mərhələ təşkil edir. Ayrı-ayrı xalqların və dinlərin mənsublarının mehriban ailə kimi yaşadıqları ölkəmizdə qarşılıqlı hörmət və etimada əsaslanan nümunəvi birgəyaşayış mühitinin formalaşmasında və etnik-mədəni müxtəlifliyin günümüzədək qorunub saxlanılmasında mütərəqqi islami dəyərlərin rolu danılmazdır".

Dini bayramların, o cümlədən Qurban mərasimlərinin cəmiyyətimizdə milli-mənəvi birliyin, xeyirxahlıq və mərhəmət duyğularının təntənəsinə çevrildiyini vurğulayan Prezident İlham Əliyev qeyd edib ki, bu mübarək bayram günlərində ölkəmizin hər yerində geniş xeyriyyəçilik və sosial yardımlaşma tədbirləri həyata keçirilir, şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur.

"Xalqımızın firavanlığı və əmin-amanlığı naminə etdiyiniz duaların və kəsdiyiniz qurbanların Tanrı dərgahında qəbul olunması diləyi ilə bir daha hər birinizə səmimi təbriklərimi çatdırır, ailələrinizə firavanlıq, süfrələrinizə xeyir-bərəkət arzulayıram", - deyə dövlətimizin başçısı bildirib.



# Azərbaycan və Çin generalları görüşdülər

İyunun 14-də müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Çin Xalq Azadlıq Ordusunun Beynəlxalq Hərbi Əməkdaşlıq Baş İdarəsinin rəis müavini general-mayor Yao Qinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

Nazir uzun illər işğal altında olan torpaqlarımızın Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan Ordusunun qələbəsi ilə nəticələnən Vətən müharibəsindən sonra azad edilməsinin xalqımız üçün tarixi əhəmiyyətindən danışıb.

Səmimi qəbula görə minnətdarlığını bildirən general-mayor Y.Qin hər iki ölkənin orduları arasında qarşılıqlı təcrübə mübadiləsi, eləcə də münasibətlərin daha da inkişaf etdirilməsi məqsədi ilə mütəmadi olaraq bu cür görüşlərin keçirilməsinin vacibliyini diqqətə çatdırıb. Çinli qonaq Azərbaycanın müdafiə nazirini cari ilin sentyabr ayında Pekində keçiriləcək 11-ci Pekin Syanşan Forumuna dəvət edib.

# ÜÇ YAŞLI ŞUŞA BƏYANNAMƏSİ



2021-ci il iyunun 15-də Azərbaycanla Türkiyə arasında imzalanan müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi iki ölkənin qardaşlığını bütün dünyaya bəyan edən mesaj idi. Bu sənəd iki qardaş ölkə arasında tarixi münasibətlərin yeni mərhələsinin əsasını qoydu.

Azərbaycan və Türkiyə arasında Şuşada imzalanmış çox böyük strateji önəm daşıyan anlaşmanın imzalanmasından üç il ötür. Bu anlaşma tarixə Şuşa Bəyannaməsi kimi düşüb. Əksəriyyət Şuşa Bəyannaməsini iki qardaş ölkə arasında strateji əməkdaşlığı ən üst səviyyəyə qaldıran sənəd kimi xarakterizə edirlər.

### İKİ ÖLKƏNİN QARDAŞLIĞINI DÜNYAYA BƏYAN EDƏN MESAJ

Milli Məclisin deputatı Könül Nurullayeva "Report"a açıqlamasında bildirib ki, üç il əvvəl - 2021-ci il iyunun 15-də Azərbaycanla qardaş Türkiyə arasında imzalanan müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi iki ölkənin qardaşlığını bütün dünyaya bəyan edən mesaj idi. O qeyd edib ki, Prezident İlham Əliyev və Türkiyə dövlətinin başçısı Rəcəb Tayyib Ərdoğanın dostluq münasibətləri qarşılıqlı əlaqələrin inkişafına mühüm töhfə verməklə yanaşı, bütün türk dünyasında əlaqələrin möhkəmlənməsinə xidmət edir: "Məhz bu tarixi sənəd iki qardaş ölkə arasında tarixi münasibətlərin yeni mərhələsinin əsasını qoydu. Prezident İlham Əliyevin də söylədiyi kimi, tarixi Qars müqaviləsinin imzalanmasından 100 il sonra azad edilmiş Şuşa şəhərində müttəfiqlik haqqında imzalanmış Birgə Bəyannamə Azərbaycanla Türkiyənin gələcək işbirliyinin istiqamətini göstərir. Şuşa Bəyannaməsi müttəfiqlik münasibətlərinin geostrateji əhəmiyyətini də artırır, həmçinin ölkələrimiz arasındakı münasibətlərin bütün müstəvilərdə davamlı inkişafını təmin etməkdədir. Bütün əməkdaşlıq sahələrini əhatə edən bəyannamə sülhə və inteqrasiyaya yol açır. Regionda inteqrasiya proseslərini stimullaşdırır".


Könül Nurullayeva

### REGİONUN ARTAN İNVESTİSİYA POTENSİALI

Deputatın fikrincə, sənədin iqtisadi əhəmiyyəti də kifayət qədərdir. O bildirib ki, Bəyannamədə əksini tapan və iqtisadi inkişafa təkan verəcək məsələlərdən biri də ölkələrin qarşılıqlı surətdə investisiya qoyuluşlarını həyata keçirməsindən, habelə bu sahədə strateji məqsədlərin olmasından ibarətdir: "Qarşılıqlı investisiya qoyuluşları ölkələrin iqtisadiyyatının sürətli inkişafına, zəruri sahələrin genişləndirilməsinə, strateji sahələrin daha da təkmilləşdirilməsinə şərait yaradır, inteqrasiyanı dərinləşdirir. Beləliklə, regionun artan investisiya potensialı yeni iqtisadi münasibətlərin formalaşması deməkdir. Müdafiə sahəsində əməkdaşlıq və qarşılıqlı hərbi yardım məsələlərinin Bəyannamədə əks olunması tarixi nailiyyətdir. Ölkələr bir-birinin təhlükəsizliyinin təminatçısı olmaqda davam edir. Müdafiə sənayesi sahəsində əlaqələrin inkişafı ölkələrin hərbi qüdrətini artırmaqdadır".



# TARİXİMİZƏ QIZIL HƏRFLƏRLƏ YAZILAN GÜN

**15 iyun Azərbaycan xalqı, dövləti üçün qaranlıqdan aydınlığa, uçurumdan zirvələrə, məğlubiyyətdən qələbəyə, inamsızlıqdan ümidə aparan yolun başlanğıcıdır. Bu tarix bir xalqın taleyinin iki fərqli hissəsini birləşdirir.**



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Elə günlər var ki, onlar Azərbaycan xalqının taleyində mühüm dönüş anı hesab edilir. Belə günlərdən biri də 15 İyun - Qurtuluş Günüdür. Xalqımızın təkidli tələbi ilə müstəqillik tariximizə qızıl hərflərlə yazılan Ulu Öndər Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışı "olum, ya ölüm" savaşı verən dövlətimizin yenidən doğuluşudur. Bu dəyərləndirmənin heç də təsadüf olmadığını həmin tarixdən 31 il keçəndən sonra daha yaxşı anlayırıq. Bu tarix cəmi 24 saat olsa da, bir xalqın taleyinin iki fərqli hissəsini birləşdirir. Məhz bu baxımdan 15 iyun Azərbaycan xalqı, dövləti üçün qaranlıqdan aydınlığa, uçurumdan zirvələrə, məğlubiyyətdən qələbəyə, inamsızlıqdan ümidə aparan yolun başlanğıcıdır.

Bəs nə idi bu iki fərqli durum? Qurtuluş Gününü Azərbaycan xalqı üçün bu dərəcədə mühüm edən məqamlar hansılardır? Bu suallara cavab tapmaq üçün Azərbaycanda 15 iyundan əvvəl və sonra yaşananlara bir daha nəzər salaq.

**15 İYUNDAN ƏVVƏL...**

- Ölkədə idarəetmə sistemi tamamilə iflic vəziyyətdə idi. Hökumətdə məsul şəxslər yaranmış duruma görə bir-birini ittihamlayır, nümayişkaranə şəkildə məsuliyyəti boynundan atmaq üçün hətta istefa verənlər belə vardı. Cəmi bir il öncə eyni yolda addımlayan siyasi qüvvələr arasında yaranan uçurum mərkəzi hakimiyyəti gücsüz bir duruma salmışdı.

- Silahlı Qüvvələrdə vahid komandanlığın olmaması, ordu birləşmələrinin ali baş komandana itaətsizliyi, onların dövlətin və millətin maraqlarına deyil, ayrı-ayrı şəxslərin ambisiyalarına xidmət etməsi dövləti xarici və daxili təcavüzə açıq bir hala gətirmişdi. Hansı ki, biz bunu həmin dövrlərdə Qarabağda ardıcıl yaşanan məğlubiyyətlər və Gəncə qiyamının timsalında müşahidə etdik.

- Büdcənin talan edilməsi, hiperinflyasiya, istehsalat müəssisələrinin dağıdılması ölkənin iqtisadi dayaqlarını tamamilə sarsıtmışdı.

- Mərkəzi hakimiyyət uğrunda aparılan qanlı mübarizə əhalinin milli və mənəvi ruhunu açıq şəkildə əzmiş, beləliklə, işğala, separatizmə qarşı ümummilli həmrəyliyi təmin edə biləcək əsas güc sayılan bu amillər demək olar ki, yoxa çıxmışdı.

- Vaxtilə xalqı müstəqilliyə, azadlığa, sovet rejiminə qarşı mübarizəyə səsləyən ziyalılarımıza, alimlərimizə qarşı ögey münasibət onların bir çoxunun ölkəni tərk etməsinə, düşünən beyinlərin digər dövlətlərə sürətli axınına şərait yaratdı ki, bu da dövlətin sağlam təməllər üzərində inkişafına ciddi zərbə vurdu.

- Separatçılıq meyllərinin güclənməsi, cəbhədə ardıcıl ağır məğlubiyyətlər, yüz minlərlə qaçqın ordusu, Gəncə qiyamı nəticəsində yaranan vətəndaş müharibəsi təhlükəsi fonunda Azərbaycan dövlətçiliyini itirmək ərəfəsində idi...




## 15 İYUNDAN SONRA...



Bu sadaladıqlarımız, əslində 1993-cü ilin 15 iyununa qədər ölkədəki ağır vəziyyətin sadəcə kiçik bir mənzərəsi idi. Bu çətinlikləri aradan qaldırmaq, milli və mənəvi cəhətdən yorğun, mübarizlik ruhu incidilmiş, azadlıq arzuları zədələnmiş xalqı yenidən ayağa qaldırmaq, təhdidlərə sinə gərmək üçün güclü liderə, rəhbərə ehtiyac var idi. Hər zaman Azərbaycan xalqının ən çətin zamanlarda müdrik qərarlar verdiyi deyilir. Biz 15 iyunda Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışına yol açan Azərbaycan xalqının məlum qərarının nə dərəcədə müdrik bir addım olduğunu bir daha gördük. Bu müdrik qərardan sonra həqiqətən də Azərbaycan xalqı rahat nəfəs almaq, baş verənlərə, yaşadığı faciələrə ayıq başla nəzər salmaq imkanı qazandı. Bunu şərtləndirən başlıca amillər isə Ümummilli Lider Heydər Əliyevin zəngin dövlətçilik və idarəetmə təcrübəsi sayəsində təhdidlərin qısa zamanda ortadan qaldırılması oldu:

- Ölkədə vətəndaş müharibəsi təhlükəsinin, qardaş qırğının qarşısı alındı;
- Mərkəzi hakimiyyət gücləndirildi, idarəetmədə xaosa son qoyuldu;
- Ayrı-ayrı silahlı birliklər vahid komandanlıq halında birləşdirildi. Uğurlu hərbi əməliyyatlarla atəşkəs sazişinin imzalanmasına nail olundu, ordu quruculuğu prosesinə start verildi;
- Separatizm meylləri ortadan qaldırıldı;
- İqtisadi vəziyyət sabitləşdirildi, inflyasiya səngidi, Azərbaycanın gələcək uğurlu inkişafının əsasını təşkil edən "Əsrin müqaviləsi" imzalandı;
- Dövlət çevrilişlərinə cəhdlərin qarşısı alındı, ictimai-siyasi sabitlik təmin olundu;
- Qanunvericilik bazası, normativ hüquqi aktlar qəbul edildi;
- Təhsil, səhiyyə, mədəniyyət, sosial sahələrdə islahatlara start verildi...

## ULU ÖNDƏRİN ARZULADIĞI AZƏRBAYCAN QURURUQ

Bu gün 15 iyunla yenidən başlayan müstəqillik yolumuz artıq dönməz mahiyyət alıb. Ulu Öndərin layiqli davamçısı, müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan çox böyük uğurlara imza atıb. 15 iyundan əvvəl alnımıza vurulmuş məğlub xalq damğası artıq yoxdur. İndi biz qalib xalqıq. Ərazi bütövlüyü, sərhədləri, suverenliyi tam bərpa olunmuş, işğaldan azad edilən əraziləri yenidən qurub yaradan dövlətik. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və Qurtuluş Günü ilə başlayan Zəfər yolunda Prezident İlham Əliyevin rəhbərliyi ilə daha güclü Azərbaycan üçün inamla irəliləyərik. Ulu Öndərin arzuladığı, görmək istədiyi Azərbaycan qururuq. Yolumuz uğurlu, Qurtuluşumuz mübarək olsun!

# İRƏVANIN NÖVBƏTİ MƏNTİQSİZ DİRƏNİŞİ



Rəsmi İrəvana görə, konstitusiya hər dövlətin daxili işidir və orada, belə demək mümkündürsə, nə yazılıbsa, yazılıb. Belə təəssürat yaranır ki, sanki erməni rəsmiləri konstitusiyanı uydurma tarixi kitabları ilə dəyişik salıblar.



RÜSTƏM QARAXANLI

İstənilən münaqişə tərəfi olan dövlətlər kimi, Azərbaycanla Ermənistan arasında da bitmiş müharibənin məntiqi yekunu - sülh müqaviləsi olmalıdır. Müqavilənin imzalanması özündə fərqli şərtləri ehtiva edir və bunlardan ən vacibi tərəflərin bir-birilərinə qarşı ərazi iddialarından rəsmən imtina etmələridir. 2020-ci ilin 44 günlük müharibəsi və 2023-cü ilin bir sutkalıq hərbi əməliyyatlarında məğlub olan Ermənistan savaşı uduzsa da, sülhü qazanmaq iqtidarında olmadığını da nümayiş etdirir. Postmüharibə dövrünün tələblərinin icrasından boyun qaçıran, ancaq zamanla onları qəbul etməyə məcbur olan, daha doğrusu, məcbur edilən rəsmi İrəvan Bakıya qarşı 30 illik ərazi aqressiyasına son qoymaq üçün yekun addımını atmalıdır. Söhbət Ermənistan konstitusiyasındakı Türkiyə və Azərbaycana qarşı ərazi iddialarından gedir. İrəvan baş nazirin, parlament sədrinin və XİN rəhbərinin dili ilə konstitusiyanın müvafiq maddələrinin dəyişilməsi və ləğvinin müzakirə predmeti ola bilməyəcəyini bəyan edir.

### PRİMİTİV VƏ QEYRİ-PEŞƏKAR ARQUMENTLƏR

Ola bilər ki, Paşinyan şəxsi bəyanatlarını Ermənistan üçün konstitusiyanın maddələrindən daha çəkili hesab edir. Amma bu yanaşma nəinki beynəlxalq münasibətlər sistemi və dövlətlərarası əlaqələrdə keçərli deyil, heç Ermənistan dövləti və xalqı üçün də legitim sayıla bilməz. İrəvan rəsmilərinin kifayət qədər primitiv və qeyri-peşəkar arqumentlərinə görə, konstitusiya bir dövlətin daxili həyatını tənzimləyən ali hüquqi aktdır və heç bir digər dövlət, yaxud kənar qüvvə erməni xalqını sənəddə dəyişikliklər etməyə məcbur edə bilməz. Diplomatik təmaslarda direniş göstərmək və ya maraqlara uyğun müddəalar uğrunda mübarizə aparmaq dünya qədər qədim tarixə malikdir. Ancaq bu prosesin bir qızıl amili var: məntiq. Ermənistanın son 30 ildə dəyişən dörd hökumətinin tutduğu xətt - himayədarlarının dəstəyi ilə məntiqə zidd iddialarını maksimum müddətə uzatmaq olub. Bu manipulyasiya dövrünə Azərbaycan ordusu 2020-ci və 2023-cü illərdə nöqtə qoydu. Ancaq belə görünür ki, erməni xalqı və dövləti əl atdıqları ənənəvi yolun tükəndiyini hələ də yaxşı dərk etmirlər.



## BEYNƏLXALQ PRESEDENT DƏ VAR, AMMA...

Mövzuya yekun vurmaq üçün qeyd etmək olar ki, bir dövlətin konstitusiyasını oxşar səbəblərə görə dəyişikliyə uğraması presedenti var və bunu ötən həftə Britaniyanın Azərbaycandakı keçmiş səfiri Ceyms Şarp dilə gətirdi. Söhbət 1998-ci ildə Britaniya parlamentinin qəbul etdiyi aktla 1920-ci ilin İrlandiya hökuməti haqqında və 1973-cü ilin Şimali İrlandiya konstitusiya haqqında qanunların ləğvindən gedir. Bu aktla İrlandiya konstitusiyasından Şimali İrlandiyaya qarşı ərazi iddialarını əks etdirən maddələr çıxarıldı. Necə deyərlər, beynəlxalq presedent var.

### BAKININ DƏMİR MƏNTİQİ

Prezident İlham Əliyev Ermənistanla sülh müqaviləsi ilə bağlı səsləndirdiyi son bəyanatında Paşinyan hökumətinin qarşısında sərt və konkret tələb qoydu: konstitusiyadakı Azərbaycanla Türkiyəyə birbaşa ərazi iddialarını ehtiva edən maddələr aradan qaldırılmalıdır. Rəsmi Bakının mövqeyi dəmir arqumentlərə söykənir. Necə olur ki, Ermənistan lideri dəfələrlə ərazi bütövlüyümüzü tanıdıqlarını bəyan edir, Qarabağın Azərbaycan torpağı olduğunu qəbul etdiklərini deyir, ancaq bunun əksi olan konstitusion maddələri aradan qaldırmaqdan imtina edir? Paşinyanın buqələmun siyasi gedişləri çoxdur və buna artıq hamı alışıb, ancaq bu, çox güman ki, onun ən qabarıq məntiq zəifliyidir.

Belə təəssürat yaranır ki, sanki erməni rəsmiləri konstitusiyanı uydurma tarixi kitabları ilə dəyişik salıblar, ya da problemin ciddiyyətinə vara bilmirlər. Türkiyə ilə danışıqlarda Paşinyanın məsul nümayəndəsi Ruben Rubinyan rəsmi Ankaranın ikitərəfli münasibətlərin qurulması prosesində könülsüz olmasından şikayətlənir. Ermənistan rəsmilərinə bunu necə izah etmək olar ki, bu "könülsüzlüy"ün səbəbi sizin konstitusion səviyyədə Türkiyənin ərazilərinə göz dikməyinizdir? Belə çıxır ki, Azərbaycan döyüş meydanında ağzını ovduğu Ermənistana indi də beynəlxalq hüquqdan dərs keçməlidir?

İstisna deyil ki, Paşinyanın problemlə bağlı mövqeyi daxili siyasi çağırışlardan irəli gəlir. Müxalifətin təzyiqləri getdikcə artır, kilsə ilə açıq konfrontasiya daxili siyasi mübarizədə yeni cəbhənin açılmasına səbəb olur. Bu baxımdan qeyri-populyar qərarların yeri və vaxtı deyil. Ancaq sizin problem elə sizindir. Vaxtın gözləməmək kimi xüsusiyyəti var.

## YARIMÇIQ SÜLH MÜHARİBƏ DEMƏKDİR

Vaxt kimi Azərbaycan da gözləmək niyyətində deyil. Bu həftə Azərbaycan ərazisində dislokasiya olmuş Rusiya sülhməramlıları ölkəmizi tamamilə tərk etdilər. Onların baza kimi istifadə etdikləri Xocalı hava limanında üçrəngli bayrağımız qaldırıldı. Rəsmi Bakı sürətlə işğaldan azad edilmiş ərazilərini bərpa edir. İndi sıra İrəvanındır: real ərazi iddialarının Ermənistan üçün nə ilə yekunlaşdığını hamı gördü. Sənəddə qalan iddialar erməni xalqı üçün bundan da ağrılı ola bilər. Onlar həll edilmədən əldə edilən sülh daimi ola bilməz. Tam sülhün olmaması müharibənin bitməməsi deməkdir. Son üç ildə Ermənistanı himayə edən və əslində onu uçuruma yuvarlayan dövlətlər də gördülər ki, Azərbaycanın iradəsi əyilməzdir. Edilən təzyiq cəhdləri bizi yolumuzdan döndərmək iqtidarında deyil.

# ERMƏNİSTAN MALİYYƏ UÇURUMUNUN ASTANASINDA

2025-ci il dövlət borcuna xidmət baxımından daha çətin olacaq. Bu o deməkdir ki, həm faizlərin, həm də əsas borcun ödənilməsi son dərəcə çətin və baha başa gələcək, çox böyük həcmdə borc tələb edəcək.

FUAD ABASOĞLU

Baş nazir Nikol Paşinyanın hakimiyyəti dövründə Ermənistan iqtisadiyyatının bir sıra sahələrində ciddi çöküşlərin qeydə alındığı sirr deyil. Hakim partiya ciddi-cəhdlə ölkədə iqtisadiyyatın yüksək templə böyüdüyünü bəyan etsə də, real mənzərə tam başqa faktları ortaya çıxarır. Bu yaxınlarda isə məlum olub ki, son aylar ərzində Ermənistanın xarici ehtiyatları bir milyard dollardan çox, yəni 25 faiz azalıb. Əgər 2023-cü ilin avqustunda ölkənin valyuta ehtiyatları dörd milyard 219 milyon dollar idisə, 2024-cü ilin may ayında bu göstərici üç milyard 188 milyon dollar təşkil edib. Hökumət üzvləri isə daim iqtisadi artım, respublikaya misilsiz valyuta axını barədə nağıllar danışırlar.

### ÖLÜM AYAĞINDA OLAN İNSANI XATIRLADAN SİSTEM

Bu azalma əsasən maliyyə sistemi ilə bağlıdır. İqtisadi artımın bu göstərilənlərlə heç bir əlaqəsi yoxdur. Çünki hakimiyyətin car çəkdiyi iqtisadi artım sünidir. Obrazlı desək, hazırda Ermənistan iqtisadiyyatı süni nəfəs aparatına qoşulmuş ölüm ayağında olan insana bənzəyir. Son yarım il ərzində iqtisadi artım yenidən etiketləmə adı altında qızıl və qiymətli daşların Rusiyadan erməni dövləti vasitəsilə ərəb ölkələrinə, Hindistana ixracına əsaslanır. Eyni zamanda, ticarət və xidmət kimi ənənəvi sektorlar, qumar biznesi və mərc oyunları, mədən sənayesi və körpü tikintisi kimi sahələr də iqtisadi inkişaf kimi xalqa sırınıb.



### TƏKCƏ FAİZ ÖDƏNİŞLƏRİ ÜÇÜN İKİ MİLYARD DOLLAR LAZIMDIR

Ermənistanın maliyyə sisteminin vəziyyətinə nəzər salanda görünür ki, istər xarici, istərsə də daxili borcların, xüsusən də son 5-6 il ərzində olanların ödənilməsi böyük vəsait tələb edir. İki milyard dollardan çox vəsait təkcə faiz ödənişləri üçün lazımdır. Bir milyard 200 milyon dollar isə əsas borcu təşkil edir. Bunlar çox böyük rəqəmlərdir və söhbət ancaq dövlət borcunun ödənilməsindən gedir.
Digər tərəfdən, özəl əmanət təşkilatları xarici mənbələrdən külli miqdarda borclar və maliyyə resursları toplayıblar. Onlar özəl banklar, ixtisaslaşmış kredit təşkilatları - fondlardır. Sonuncuların bu siyasətə əl atması heç də əbəs deyil, çünki Mərkəzi Bankın yenidən maliyyələşdirmə dərəcəsinin çox yüksək olduğu şəraitdə özəl banklar və digər kredit təşkilatları üçün də bu mənzərə sərfəlidir.

### EHTİYATLAR BİR MİLYARD DOLLARDAN ÇOX AZALIB

Bütün yuxarıda sadalanan hallar xarici valyutaya böyük tələbatın yaranmasına səbəb olur. Məhz bu səbəbdən ölkənin xarici valyuta ehtiyatları bir milyard dollardan çox azalıb. Son rəqəmlər göstərir ki, idxal valyuta ehtiyatlarından çoxdur.

Ehtimal etmək olar ki, 2025-ci il dövlət borcuna xidmət baxımından daha çətin olacaq. Bu o deməkdir ki, həm faizlərin, həm də əsas borcun ödənilməsi son dərəcə çətin və baha başa gələcək, çox böyük həcmdə borc tələb edəcək. Bunun üçün isə erməni hökuməti xarici fondlara müraciət edəcək. Həmin məbləğləri həm dövlət, ixtisaslaşmış depozit təşkilatları, həm də istehsal sektoru təşkilatları xarici fondlardan əldə edir. Peşəkar nöqteyi-nəzərdən burada heç bir problem yoxdur. Amma Ermənistanın maliyyəsini idarə edənlərin, Mərkəzi Bankın idarəçilərinin bütün bu axınları tarazlı vəziyyətdə saxlamaqla bağlı böyük problemi var. İqtisadiyyat həyat qabiliyyətli, orta və uzunmüddətli dəyər yaradan sistemlər olsa, buna nail olmaq mümkündür. Amma hakim partiyanın təcrübəsi göstərir ki, əsas iqtisadi artım deyiləndə ticarət və yuxarıda qeyd edilən qızıl məhsullarının yenidən etiketlənməsi nəzərdə tutulur. Bu isə spekulyasiyadan başqa bir şey deyil. Qiymətli metallara əsaslanan spekulyativ oyunlar yaxşı heç nə gətirməyəcək və belə davam edərsə, ölkənin maliyyə sisteminin iflasa uğraması mümkündür.



## İQTİSADİYYATIN REAL SEKTORU YADDAN ÇIXIB



Erməni dramı hələ də həddindən artıq bahadır ki, bu da ilk növbədə yerli istehsala və ixraca təsir edir. Amma heç kim iqtisadiyyatın real sektoru haqda düşünmür. Söhbət daxili iş yerlərinin yaradılmasından gedir. Bu gündəm hakimiyyətin proqramında sadəcə mövcud deyil.

Digər tərəfdən, dolların ucuz olması qəribə və paradoksaldır. Hökumət və Mərkəzi Bank əlavə emissiya hesabına ekspansiya siyasəti aparmır. İnflyasiya çox aşağı səviyyədədir, hətta bəzən vəziyyət deflyasiya xarakteri daşıyır və bu vəziyyətdə yenidən maliyyələşdirmə dərəcəsi 8%-dən yuxarı, yüksək səviyyədə saxlanılır. İnflyasiya 1,5-2% diapazonunda olduğu halda, bu, sadəcə olaraq, məntiqə zidd siyasətdir və ilk növbədə öz iqtisadiyyatının inkişaf planlarına qarşı yönəlib.

### NİKOLUN UCUZ DOLLAR SİYASƏTİ

Aydındır ki, ucuz dollar, nə qədər paradoksal səslənsə də, ilk növbədə hökumətə borc gündəmində ilişib qaldığı üçün lazımdır. Paşinyan hökuməti son beş ildə hər il orta hesabla bir milyard dollar artan borca xidmət etmək üçün ucuz dollar yığır. Bu gün dövlət borcu 12 milyard dollar civarındadır, ona özəl borcları da əlavə etsək, konsolidə edilmiş borc 15 milyard dollara yaxındır və bütün bunlara xidmət etmək üçün xarici valyuta lazımdır. Bu tələb məzənnəni aşağı salmağa məcbur edir. Belə vəziyyətin yaranması isə maliyyə sektorunda dalana dirənmə kimi qiymətləndirilə bilər.

Göründüyü kimi, Ermənistanın xarici valyuta bazarı can üstündədir. Paşinyan hökuməti ölkəni borc bataqlığına salır, hər il xarici borc durmadan artır. Turizmin və iqtisadiyyatın inkişafı ilə bağlı sabun köpükləri isə artıq partlayıb. Real mənzərə erməni dövlətinin maliyyə uçurumunun astanasında olduğuna işarə edir.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 \ (+994 77) 447-47-17
E-mail: kaspiqazeti@kaspi.az

# MAKRONUN SİYASİ FİASKOSU



Avropa Parlamentinə keçirilən seçkilər proqnoz edildiyi kimi, sağ və radikal kəsimin üstünlüyü ilə başa çatıb. Avropa İttifaqının iki ən qüdrətli dövləti - Fransa və Almaniyada ultrasağlar üstünlüyü ələ almağa müvəffəq olublar.

AZƏR NURİYEV

Avropa tarixinin ən çətin və təlatümlü mərhələsinə daxil olur. İyunun 6-dan 9-a kimi Avropa Parlamentinə keçirilən seçkilər proqnoz edildiyi kimi, sağ və radikal kəsimin üstünlüyü ilə başa çatıb. Avropa İttifaqının iki ən qüdrətli dövləti - Fransa və Almaniyada ultrasağlar üstünlüyü ələ almağa müvəffəq olublar. Əgər almanlar bu nəticəni adi qarşıladılarsa, fransızlar haqqında bunu demək olmaz.

### SEPARATÇI, MİLLƏTÇİ PARTİYALAR UĞUR QAZANA BİLMƏYİBLƏR

Gözlənildiyi kimi, seçkilər ifrat sağçı, ksenofob və populist partiyalar üçün uğurlu olub. Bu kontekstdə Fransa ilə yanaşı, Niderland və Avstriyada ksenofob sağ populist partiyaların Avropa İttifaqına əhəmiyyətli dərəcədə təsir edəcəyi gözlənilir. Eyni şəkildə Belçikada həm ümumi seçkilərdə, həm də AP seçkilərində məğlub olan baş nazir Aleksandr de Croo da göz yaşları içində istefa verdiyini açıqlayıb. İfrat sağçı populist NV-A partiyası parlamentdəki yerlərinin sayını artıraraq Belçikada aparıcı siyasi qüvvəyə çevrilib.

Bir detal da budur ki, Aİ-dəki separatçı, millətçi partiyalar nə Belçika, nə İtaliya, nə də İspaniyada gözlədikləri nəticələri ala bilməyiblər. İtaliyada baş nazir Giorgia Meloninin "İtaliya Qardaşları" partiyası 28 faiz səs toplayaraq öz mövqeyini möhkəmləndirib.

### NÖVBƏTİ PREZİDENT MARİN LE PEN OLACAQ?

Seçkilərdə qeydə alınan nəticə Fransa prezidenti Emmanuel Makronu parlamenti (Milli Assambleya) buraxmağa və növbədənkənar seçkilər keçirməyə məcbur edib. Ehtimallara görə, bu seçkilər belə, ona kömək etməyə bilər. Sağçıların lideri Marin Le Penin növbəti prezident olacağı ehtimalları artmaqdadır. Belə olan halda ölkədə ciddi toqquşmalar və kütləvi iğtişaşların baş verəcəyi qaçılmaz olacaq. Bütün bunlar isə sözsüz ki, Makronun yarıtmaz xarici və daxili siyasətinin nəticəsidir. 2017-ci ildən hakimiyyətdə olan bu şəxs fransızlara uğursuzluqdan başqa heç nə gətirməyib.

## FRANSA TARİXİNDƏ İLK

Fransa tarixində ilk dəfə olaraq hakimiyyəti təmsil edən siyasi partiya 15 faiz səs alıb. Makronun partiyasının bu nəticəsi olduqca aşağı göstərici hesab edilir. Hakimiyyətə gələn kimi bir sıra çətinliklərlə üzləşən, müxtəlif sosial qrupların tələblərini qulaqardına vuran siyasi sistemin Fransa cəmiyyətində legitimlik dərəcəsi müzakirə obyektidir. Biz buraya Emmanuel Makronun xarici siyasətindəki ardıcıl uğursuzluqlarını da əlavə edə bilərik.

### MAKRONUN SƏLƏFLƏRİNDƏN FƏRQİ

Makronun siyasi hakimiyyəti illərində Paris imicini tamamilə itirməyə başlayıb. Son iki il ərzində Fransa siyasətinə qarşı başlayan etirazlar səbəbindən Paris Afrikanın bəzi ölkələrindən çıxmaq məcburiyyətində qalıb və bu proses hazırda da davam edir. Buna paralel olaraq Yeni Kaledoniyada, Korsikada və digər yerlərdə mərkəzi hökumətə qarşı etiraz aksiyaları şiddətlənir. Yeni Kaledoniyaya köçürülmüş fransızlar hesabına oradakı demoqrafik vəziyyət süni şəkildə dəyişdirilir və Paris bundan da öz xeyrinə faydalanmaq niyyətindədir. Bu da yerli xalqların öz hüquqlarından istifadəsinə əngəllər yaradır.



Fransanın xarici diplomatiyasındakı digər yanlışlıqlar isə erməni lobbisinin təsiri altında anti-Azərbaycan siyasətini həyata keçirməsidir. Fransa prezidentinin Azərbaycana qarşı qarayaxma kampaniyasına rəhbərlik etməsi, Ermənistanı açıq şəkildə dəstəkləməsi onun şəxsi maraqlarına və ambisiyalarına xidmət edir. Fransa tarixində Makron qədər ölkə maraqlarını və mənafelərini tapdalayan, uğursuz xarici siyasət yürüdən siyasi lider olmayıb.

Məhz seçkilərin nəticəsidir ki, Makron Yeni Kaledoniyada mübahisəli seçki islahatını dayandırmağa məcbur olub. İslahat planı may ayında Sakit okean arxipelaqında şiddətli iğtişaşlara səbəb olub. İğtişaşlar zamanı azı 7 nəfər ölüb, 370-dən çox adam yaralanıb. Makron deyib ki, "Yeni Kaledoniyada islahat planını seçkilər ərəfəsində qeyri-müəyyənliyin qarşısını almaq üçün dayandırır". Arxipelaq sakinləri dəyişikliklərin yerli kanak əhalisinin imkanlarını azaldacağından narahat idi.



## HAKİMİYYƏT XALQI FƏLAKƏTƏ SÜRÜKLƏYİR

Yeri gəlmişkən, Fransa prezidentinin tərəfdarlarının parlamentdəki koalisiya nümayəndələri Makronun "onları fəlakətə apara biləcəyindən" qorxurlar. Tərəfdarları onun Avropa Parlamentinə seçkilərdəki məğlubiyyətdən sonra növbədənkənar seçkilər keçirmək qərarını məhz bu cür qəbul ediblər. Tərəfdarlarından biri deyib ki, Makron danışdıqca, rəy sorğularındakı mövqelərini daha da itirirlər. Daha əvvəl media E.Makronun Milli Assambleyaya erkən seçkilərlə bağlı avantürasının onun partiyası daxilində xaos və qəzəb yaratdığını yazmışdı. Onun tərəfdarları bu qərarı açıq şəkildə şübhə altına alırlar, dövlət qulluqçuları isə artıq ifrat sağçı hökumətin necə işləyəcəyini müzakirə edirlər. Medianın məlumatına görə, Makron növbədənkənar parlament seçkilərində sağçıların qalib gələcəyi təqdirdə istefa vermək məcburiyyətində qalacaq.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



QURBAN HƏR ŞEYDƏN ƏVVƏL İLAHİ ƏMR, ALLAHA İTAƏTİN TƏCƏSSÜMÜDÜR

# FƏDAKARLIQ VƏ SEVGİ BAYRAMI



**Qurban kəsmək ilk növbədə müsəlman olmağın göstəricisidir. Əgər insan borc içində deyilsə, gündəlik tələbatını ödəməklə yanaşı, kənarda əlavə pul toplamaq imkanı varsa, qurban kəsmək onların gündəlik, aylıq yaşayışına təsir göstərmirsə, kəsə bilər. Maddi ehtiyaclarını ödəyə bilməyən insanlar qurban kəsməkdən azaddırlar.**



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

İyunun 16-17-də İslam aləminin ən müqəddəs bayramlarından biri olan Qurban bayramını qeyd edəcəyik. Bu bayram hər il hicri təqvimi ilə zilhiccə ayının 10-cu günündən başlayır, bir neçə gün davam edir. Qurban bayramı qardaşlığı, dostluğu, fədakarlığı, xeyirxahlığı ehtiva edir.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi, Azərbaycan İlahiyyat İnstitutunun dosenti Elvüsal Məmmədov "Kaspi" qəzetinə açıqlamasında bildirib ki, qurban hər şeydən əvvəl ilahi əmr, Allaha itaətin təcəssümüdür. Onun sözlərinə görə, bu bayram insanları mərhəmətə, şükür etməyə, yardımlaşmağa dəvət edir: "Biz qurban kəsməklə İbrahim peyğəmbərin oğlu İsmayılla əhvalatını xatırlayır, yad edirik. Bu hadisə ilə həmin gün müsəlmanlar Allah yolunda hər cür fədakarlığa hazır olduqlarını nümayiş etdirirlər. Təsadüfi deyil ki, Qurban bayramı ərəb dilində fədakarlıq mənasını ifadə edir".

### "QURBAN BAYRAMI HƏM DƏ ŞÜKÜR BAYRAMIDIR"

İlahiyyatçı deyir ki, Qurban bayramı həm də şükür bayramı-dır: "Qurban kəsməklə bəndə həm də Allaha ona verdiyi hədsiz nemətlərə görə şükür edir. Biz bu bayramı qeyd etməklə, müsəlman olduğumuzu, "Qurani-Kərim"də Allahın buyurduqlarını qəbul etdiyimizi təsdiqləyirik. Təsdiqlə yanaşı, qurban özündə sevgini ifadə edir. Çünki insan Allahı sevmədikdə onun buyurduqlarına da əməl etmir. Əlbəttə ki, Qurban bayramı və qurban ibadətinin mənəvi tərəfləri ilə yanaşı, sosial-ictimai tərəfləri də var. Biz bu bayramda qurban kəsir, ətini kasıblara, ehtiyacı olanlarla paylamaqla qardaşlıq borcumuzu yerinə yetirir, insanlar arasında həmrəyliyin, yardımlaşmanın möhkəmlənməsinə öz töhfəmizi veririk".

Bayramın vacib əməllərindən biri bayram namazının qılınmasıdır. Mütəxəssis deyir ki, bayram namazı iki rükətdir və günəşin çıxmasından sonra qılınır: "O, digər namazlardan hər rükətdə təkbirlərin çəkilməsi ilə fərqlənir, başqa heç bir fərqi yoxdur".

"Bütün müsəlmanlar qurban kəsmə-lidirmi?" sualına gəldikdə, ilahiyyatçı bildirir ki, hansı müsəlmanın imkanı çatırsa, qurban kəsməsi bəyəniləndir: "Qurban kəsmək ilk növbədə müsəlman olmağın göstəricisidir. Amma bütün müsəlmanlara vacib deyil. Əgər insan borc içində deyilsə, gündəlik tələbatını ödəməklə yanaşı, kənarda əlavə pul toplamaq imkanı varsa, qurban kəsmək onun gündəlik, aylıq yaşayışına təsir göstərmirsə, kəsə bilər. Maddi ehtiyaclarını ödəyə bilməyən insanlar qurban kəsməkdən azaddırlar".



Elvüsal Məmmədov

### "HEYVANIN AYAĞI AXSAQ, GÖZÜ KOR OLMAMALIDIR"

Bayramda müzakirəyə səbəb olan hallardan biri də qurbanlıq heyvanın düzgün seçilməsidir. Maraqlıdır, bu seçim necə aparılmalıdır?

Həmsöhbətimiz bildirir ki, qoç, inək, dəvə, keçi qurban kəsilə bilər. Bu vaxt biz çalışmalıyıq ki, qurbanlıq heyvan gözəgəlimli olsun, heç bir fiziki qüsuru olmasın, ətli, canlı olsun: "Çünki biz qurbanı Allah adına kəsirik. Biz qurban seçərkən çalışmalıyıq ki, xüsusən qoç və keçilər bir yaşına qədər olsun. Əgər bir yaşına çatmayıbsa, amma bir yaşlı heyvan kimi görünürsə, kəsə bilərik. Qoç və keçini ancaq bir nəfər kəsə bilər. İnək və dəvəni isə yeddi nəfərin şərikli kəsməsi mümkündür. Kəsiləcək heyvanların ayağı axsaq, qulağının hansısa əzası əskik, gözü kor olmamalıdır".

## BU HALDA QURBAN QƏBUL OLUNMUR



**Foto:** Tapdiq Abdullayev / Global Media Group

Mütəxəssis deyir ki, bəzi insanlar qurbanın növünü ayıra bilmir: "Niyyət və İsmayıl qurbanı fərqlidir. Bayramda kəsiləcək qurban məhz İsmayıl qurbanıdır. Biz bu qurbanı kəsərkən məhz Allah üçün niyyət etməliyik, Onun yolunda kəsməliyik. Əks halda qurbanımız qəbul olunmaz".

### DİGƏR MƏHSULLARDA BAHALAŞMA GÖZLƏNİLMİR

Bəs Qurban bayramında bazarda bahalaşma gözlənilirmi? Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin sədri Vüqar Oruc deyir ki, qiymətlərin dəyişməsi bazar iştirakçılarının sayından, təklif etdikləri qiymətlərdən, habelə həmin məhsula olan tələbatdan asılıdır: "Təbii ki, təkcə Qurban bayramında deyil, digər bayramlarda da elə məhsullar olur ki, onlara tələbat daha da artır. Məsələn, bu bayramda tələbatın daha çox olduğu ərzaq ət və ət məhsullarıdır. Tələbata uyğun qiymət formalaşır və ət məhsulları bahalaşır. Təəssüfləndirici məqam odur ki, hər il bayram ərəfəsində artan qiymətlər psixoloji baryerlər səbəbindən bayramdan sonra da azalmır, ucuzlaşma baş vermir".

İqtisadçı deyir ki, bu il digər məhsullarda bahalaşma gözlənilmir: "Bu bayramda digər məhsullara xüsusi tələbatın olacağı gözlənilmir. Buna görə də qiymət artımını proqnozlaşdırmırıq".

V.Oruc sonda vurğulayır ki, bayram ərəfəsində qurumlar tərəfindən keçirilən yarmarkaların bazara müsbət təsirləri olur: "Azərbaycan sosial dövlətdir. Bu səbəbdən hər il bayram ərəfəsində yarmarkalar keçirilir, marketlərə ətlər ucuz qiymətə təklif olunur. Dövlət ya müxtəlif üsullarla sahibkarları stimullaşdırır, ya özü iştirakçı kimi daha ucuz məhsullar təklif edir. Bu, vəziyyəti stabilləşdirir. Bu addımlar olmasa, qiymət ciddi şəkildə artar və əhalinin böyük bir hissəsi bayram günlərində qurban əti əldə edə bilməz. Təbii ki, bu məsələ həm də inanca bağlıdır və əhalinin mütləq əksəriyyəti bundan kənarda qalmaq istəmir. Mən bütün imkanlı şəxsləri və xeyriyyəçiləri bu günlərdə aktiv olmağa çağırıram ki, qurban payından məhrum olan vətəndaş qalmasın".



Vüqar Oruc

“MÜHƏNDİSLİKDƏ OXUYAN TƏLƏBƏLƏRİN ÇOXUNU ARTIQ ÜÇÜNCÜ KURSDA İŞƏ ÇAĞIRIRLAR”.




Təranə Məhərrəmova
taranamaharramova@kaspi.az

# “SÜNİ İNTELLEKT İNSANI AĞIR ƏMƏKDƏN QURTARIR”

**Hamlet İsaxanlı:** “Kiminsə “Azərbaycanda bir universitet niyə Oksfordla yarışmır” deməsi gülməlidir. Çünki Oksford 800 ildir qurulub. Üstəlik, heç Almaniyada, Fransada da Oksforda bənzəyən universitet yoxdur”.





Fotolar: Photostock / Global Media Group

“İndi zaman dəyişib - elm adamları, mühəndislər, texnoloqlar, kimyaçıların həyatı daha rahatdır. Bəstəkarın əsərini isə alan yoxdur. Rəssam bilmir ki, əsərini kimə satsın. Bu, elm adamının yox, texnologiyanın - biotexnologiyanın, nanotexnologiyanın, kompüter mühəndisinin, aqrar texnologiyanın dövrüdür”.

Xəzər Universitetinin təsisçisi, direktorlar və qəyyumlar şurasının sədri, “Dünya” məktəbinin həmtəsisçisi, naşir, tərcüməçi Hamlet İsaxanlı ilə müsahibəmizdə təkcə ölkəmizdə deyil, ümumən dünyada təhsil və elm sahələrində baş verən proseslərə nəzər saldıq.

## “ÖZƏL UNİVERSİTETLƏRİN BİR XÜSUSİYYƏTİ VAR Kİ...”

● **Hamlet müəllim, dünyada dövlət universitetləri, yoxsa özəl universitetlər güclü hesab olunurlar?**

● Hansısa universitetin necə olması fəaliyyət göstərdiyi ölkədəki ənənəyə bağlıdır. Mərkəzi və Qərbi Avropada olan güclü universitetlərin demək olar ki, hamısı dövlət və ictimai (publik) universitetlərdir. Söhbət Oksford, Kembric, Sarbon kimi məşhur universitetlərdən gedir. Amma oradakı “dövlət universiteti” anlayışı bizdəki “dövlət universiteti” anlayışından xeyli fərqlidir. Çünki Oksford Universiteti Azərbaycanda olan hər hansı özəl ali məktəbdən qat-qat çox müstəqildir. Oksford və ya Kembric universitetləri heç bir işinə, heç bir siyasətinə, məsələn, tələbə qəbul prosesi, hansısa ixtisas açmalarına və s. görə heç kimdən icazə almalı deyil. Onların idarə heyətləri var, özləri planlaşdırırlar, universitetin strategiyasını, istiqamətini müəyyənləşdirirlər, rektoru təyin edirlər. Dövlət yalnız maliyyə verə bilər. Maliyyə alan da elə ən güclü universitetlərdir. Onlar güclü olduqları üçün tədqiqat aparırlar. Dövlət müəllimin maaşına pul vermir. Universitet özü qazanır, özü də ödəyir. Fransada bir az fərqlidir, daha mərkəzləşmişdir. Azərbaycana daha çox bənzəyir, müəyyən şeylər üçün icazə almalısan. ABŞ kimi ölkələrdə fərqlidir. İlk iyirmiliyə düşən universitetlərin böyük əksəriyyəti özəl universitetlərdir. Özəl universitetdən sonra publik universitetlər gəlir. Publik universitetlərin bir hissəsi çox güclüdür. Məsələn, Berkli publik universitetidir. Sonuncu kateqoriya dövlət universitetlərdir. Dövlət universitetləri içərisində tək-tək universitetlər olur ki, yarışa girir.

Yaponiyada əvvəl dövlət universitetləri güclü olub, sonra özəl sektor inkişaf edib. Çində dövlət sektoru olub, amma bir neçə çox güclü özəl universitet qurublar. Hər ölkə tarixi ənənəsinə, inkişafına uyğun universitet qurub. Azərbaycana gəlincə, sovet dövründə “özəl” anlayışı yox idi. Yeni dövrdə yeni ideyaları biz gətirdik. Necə ki, dövlət universitetləri hər yerdə, o cümlədən Azərbaycanda eyni səviyyədə deyil, eyni qaynaqları yoxdur, özəl universitetlər də yarananda fərqli-fərqli oldular. Onların da güclüsü, ortası, zəifi, çox pisi var. Özəl universitetlərin bir xüsusiyyəti var ki, onlar daha çox rəqabət içərisindədirlər. Bu, onları qoruyur.

## “BİZDƏ KOMPÜTER ELMİ SAHƏSİNDƏ MƏKTƏB OLMAYIB”

● **Bəzi universitetlər öz missiyasını təhsil və sosial sahədə yeni tip mütəxəssislər hazırlamaqda görürlər. Bu yeni mütəxəssislərin hansı peşəkar və “yumşaq” bacarıqları var?**

● Birincisi, danışdıqlarının çox hissəsi təbliğatdır. Deyilən sözlərin çoxunun arxasında real əməl yoxdur. Zaman çox dəyişdiyi üçün dövrə uyğun olaraq ixtisasların da strukturu dəyişir. Müəyyən ixtisaslara ehtiyac çox artır, bəzi resurslara ehtiyac köhnəlir. Məsələn, bu yaxınlarda Ankarada tərəfdaşlarımız olan Orta Doğu və Bilkent universitetlərinin rektorları ilə görüşdüm. Bilkent Universitetinin rektoru dedi ki, onların ən populyar ixtisası həmişə elektrik, elektronika və mühəndislik olub. Hazırda kompüter mühəndisliyi birinci yerə keçib. Bizim universitetdə də elədir: kompüter mühəndisliyində təxminən 100 uşaq oxuyur. Onların təhsil haqqını dövlət ödəyir. Çünki yüksək balla gələnlər dövlət sifarişi ilə gəlir. Keçən tədris ilində də tələbələrimizin 66 faizi dövlət sifarişi ilə gəlib. Universitetlərin yeni ixtisaslar üzrə mütəxəssisləri necə hazırlaması da vacib amildir. 10 il əvvəlki kompüter elmləri ilə bugünkü arasında kəskin fərq var. Dəyişiklik o qədər sürətlə gedir ki, Azərbaycanda universitetlərin böyük əksəriyyəti heç onu izləyə bilmirlər.

Azərbaycanda kompüter elmi sahəsində məktəb olmayıb. Bu sahə üzrə bir nəfər də xaricdə doktorluq müdafiə etmiş mütəxəssisimiz yoxdur. Bu qədər yaxşı uşaqlar gəlir, onlara kim dərs desin? Ona görə bu sahədə çalışan müəllimlərimizin 90 faizi xaricilərdir. Biz xaricdən yaxşı mütəxəssis gətirməyə məcburuq. Bu sahədə yenilik, əsasən ABŞ, Yaponiya, İngiltərə, Çin, İsraildədir.

Yaxşı doktoranturada oxuyanların çox olması elm, texnologiya deməkdir. Bu günlərdə Nobel mükafatçısı Əziz Sancar AMEA-dakı görüşündə “Türk dünyası və Çin” adlı təqdimat etdi. ABŞ-də məşhur “Təbiət” jurnalının sonuncu nömrəsini göstərib dedi ki, bu jurnalda doqquz elmi məqalə var, onun yeddisini çinlilər yazıb. Kim dünyadakı bu dəyişmələri izləyə və işində tətbiq edə bilirsə, qabağa getmək ehtimalı var. Kim bu yeniliklərlə maraqlanmırsa, sadəcə əyalət məktəbi qurur. Heç yana düşə bilməyən adamlar beş manat pul verib oradan bir diplom alacaqlar. Sabah o diplomun da heç bir xeyri olmayacaq. Zamanın fərqini öz işində göstərə bilən ali məktəblər rəqabətdə irəli çıxa biləcəklər. Kiminsə “Azərbaycanda bir universitet niyə Oksfordla yarışmır” deməsi gülməlidir. Çünki Oksford 800 ildir qurulub. İngiltərə bu gün də dünyanın elm mərkəzlərindən biridir. Heç Almaniyada, Fransada da Oksforda bənzəyən universitet yoxdur. Çalışmalıyıq ki, Oksford universiteti hansı yolla gedirsə, biz də ona bənzər olan bir yolla gedək. Aydındır, orada olan professor məndə olmayacaq, amma istəyirəm ki, Oksfordda dərsi hansı kitabdan keçirlərsə, o kitabı oxutdurum. İstedadlı tələbə onu başa düşəcək, sonra ardını Oksfordda keçəcək.

> “Azərbaycanda kompüter elmi sahəsində məktəb olmayıb. Bu sahə üzrə bir nəfər də xaricdə doktorluq müdafiə etmiş mütəxəssisimiz yoxdur.”

## “MÜHƏNDİSLƏRİN, TEXNOLOQLARIN HƏYATI DAHA RAHATDIR”

● **Belə bir fikir var: 60-cı illər fiziklər, 90-cı illər hüquqşünaslar, humanitar və iqtisadçılar dövrü olub. İndiki dövrü də yəqin süni intellekt dövrü kimi xarakterizə edəcəklər...**

● “Fiziklər-liriklər” deyilən problem var. Bir var, maddi nemətləri yaradan sahələr - təbiət elmləri, mühəndis və texnologiya. Bir də var, zövq, ruh üçün olan sahələr - ədəbiyyat, musiqi və s. Zaman göstərir ki, bunların ikisi də lazımdır. Amma dövlətlər İsaak Nyutonunun dövründən başlayaraq təbiət elmləri və mühəndisliyə daha çox fikir veriblər. Çünki körpünü onlar salıblar, televiziyanı onlar yaradıblar və s. Bundan da liriklər həmişə şikayət ediblər. Sovet dövründə bir balans vardı - ikisinə də fikir verirdilər. Bəstəkarın, rəssamın əsərinə, şairin hər sətrinə görə pul verirdilər. Səməd Vurğun Azərbaycanın ən zəngin adamı idi. İndi zaman dəyişib, mühəndislərin, texnoloqların, kimyaçıların həyatı daha rahatdır. Bəstəkarın əsərini isə alan yoxdur. Rəssam bilmir ki, əsərini kimə satsın. Bu dövr elm adamının yox, texnologiyanın - biotexnologiyanın, nanotexnologiyanın, kompüter mühəndisinin dövrüdür.

## “DİPLOMU KİMİN VERMƏSİ DƏ ÖNƏMLİDİR”

● **Bəs əmək bazarı necə, texnologiya dövrünə adekvatdırmı?**

● Kompüter elmlərinə birinci kurs tələbələri gəlir. Görürük ki, proqram yazıb şirkətlərdən xeyli pul qazanırlar. Mühəndislikdə oxuyan tələbələrin çoxunu artıq üçüncü kursda işə çağırırlar. Buraxmasaq, universiteti atıb gedəcəklər, buraxacağıq, pis oxuyacaqlar. Onlar üçün xüsusi çalışırıq: dərslərini şənbə-bazar günlərinə salırıq. Dərs deyənlərin bir qismi də xarici şirkətlərdə çalışdıqlarından həmin günlər gəlirlər. Tələbələrimizin xeyli hissəsi universiteti qurtarmamış işləyirlər, onları əl-əl axtarırlar. Amma bu, ədəbiyyatçıya, tarixçiyə aid deyil. Onlar həmişə iş axtarırlar. Mühəndislər də zəif universitetləri qurtarıblarsa zəif iş tapırlar. Baxmayaraq ki, ixtisas yaxşıdır, deyirlər ki, filan yeri qurtarıb, orada savad vermirlər. Yəni ixtisasdan başqa, diplomu kimin verməsi də önəmlidir.



## “TÜRKİYƏNİN AVROPA SƏVİYYƏSİNƏ YAXIN 10-12 UNİVERSİTETİ VAR “

● **Bu il buraxılış imtahanlarından 300 bal toplayan şagirdlərin sayı keçən illə müqayisədə xeyli çox oldu. Sizcə, bir il ərzində nə baş verdi ki, belə bir dönüş yarandı?**

● Bunun dəqiq elmi izahı yoxdur. Görürsən, müəllimlər deyirlər ki, bu il gələn coğrafiyaçılar keçən ildəkilərdən zəifdirlər. Növbəti il “bu il yaxşı uşaqlar gəliblər” deyirlər. Məktəblərdə müəllimlər dəyişirlər. Yaxşı bir müəllim təqaüdə çıxır, yeni gələn müəllim onu əvəz edə bilmir. Dövlət məktəblərinin əksəriyyətində uşaqlar yuxarı siniflərdə adlarını məktəbə yazdırırlar, hazırlıqlara gedirlər. Repetitorluqda yaxşı olan bəzən gəlib universitetdə özünü doğrultmur. Bəzən elə olur ki, uşaq nisbətən zəif qiymətlə gəlir. Sonra burada elə açılır ki... Və yaxud, yaxşı balla daxil olan uşaq universitetdə orta oxuyur. DİM-in testləri dəyişməsi də nəticələrə təsir edə bilər. Testin suallarını bir balaca çətinləşdirsən ballar azalır, bir balaca asanlaşdırsan ballar artır. İndi uşaqların bir hissəsi ali təhsil üçün xaricə gedir. Bu da keçid balının aşağı düşməsinə səbəb olur.

● **Söz düşmüşkən, xaricdə təhsilə kütləvi axın var.**

● 90-cı illərdə biz ABŞ-nin Kaliforniya Universitetindən qrant aldıq. Oranın proqram direktoru deyirdi ki, çalışın, bakalavr səviyyəsində xaricə çox uşaq göndərməyin. Bakalavr ali məktəbin aşağı pilləsidir. Burada yaxşı ali məktəb olsa, uşaq bakalavrda öyrənəcək. Çünki faktiki ali məktəbə gələn uşaq ana uşağıdır. Birdən-birə xaricdə fərqli mühitə düşəndə stress olur, başqa dil, şəraitlə qarşılaşır. Amma bakalavr pilləsini qurtarıb xaricdə magistraturaya daxil ola bilsə, artıq yetişmiş adam olur. Xaricə gedənlər yaxşı universitetdə oxumaq istəyirlər. Avropaya, ABŞ-yə gedə bilməyənlər heç olmasa Türkiyədəki yaxşı universitetlərdə oxumağa çalışırlar. Türkiyənin Avropa universitetlərinə yaxın 10-12 universiteti var.

● **Bu gün bir çox peşə sahələrində verilən sual: süni intellekt müəllimi əvəz edəcəkmi?**

● Qətiyyən mümkün deyil. Süni intellekt həmişə olub. Məsələn, evində oturub televiziyaya baxırsan, radioya qulaq asırsan. Bu, süni intellektdir. İndi deyirsən “dostuma bir təşəkkür məktubu yaz”, süni intellekt onu yazır. Sənayeləşmənin, texnologiyanın yeni bir dövrüdür. Süni intellekt insanı ağır əməkdən qurtarır. Əvvəllər insanların ürəyi tutanda ölüb gedirdilər. İndi xəstəxanalarımızda texnologiyaların köməyi ilə ürək əməliyyatı edən həkimlərimiz var. Süni intellekt maşın-mexanizmlərin keyfiyyətinin, həssaslığının artmasıdır. Süni intellekt istənilən halda bir cihazdır. Onu insan icad edir, təkmilləşdirir və idarə edirsə, o, insanı necə əvəz edə bilər?

# RAYONLARDA HOTELLƏR BOŞ QALIB




Rayonlarımızdakı hotellərin doluluq səviyyəsi çox aşağıdır. Statistik rəqəmlər belə deyir. Ekspertlər isə düşünürlər ki, turistləri hotellərə cəlb etmək üçün əlavə addımlar atılmalıdır.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

2024-cü ilin yanvar-mart aylarında hotel və mehmanxana tipli obyektlərin birdəfəlik tutumundan istifadə 17,8 faiz səviyyəsində olub. 2024-cü ilin ilk üç ayında hotellərin ən çox dolu olduğu rayonlar Şabran (45,5 faiz) və Qusardır (41,3 faiz). Bakıda hotellərin doluluq səviyyəsi 30,6, Naftalanda 29,8, Saatlıda 24,8, Sabirabadda 20,8, Beyləqanda 20,4, Ağcabədidə 20,2 faiz, digər şəhər və rayonlarda isə ölkə üzrə orta göstəricidən də aşağı olub.

**"GİRİŞ QAPISI TƏK BAKI OLMAMALIDIR"**

"Azərbaycan Hotellər və Restoranlar Assosiasiyası"nın İdarə Heyətinin sədri Samir Dübəndinin sözlərinə görə, rayonlarımızda turizm imkanları o qədər də inkişaf etməyib: "Turistlər regionlara daha az səfər edirlər. Bakı ilə yanaşı, digər regional turizm destinasiyaları da turlara daxil olmalıdır. Regionlarımızın da turizm potensialını artırmalıyıq. Bunun üçün güclü turizm infrastrukturu lazımdır. Turizm operatorları, tur agentləri, yerləşmə vasitələri, nəqliyyat xidmətləri, ekskursiyalar - regionlarda bu komponentlər olan turlar çox azdır".

S.Dübəndi bildirdi ki, regionlara təşkil olunan turlar da qaneedici deyil: "Bələdçi sayı çox azdır. Bəzi regionlarda ümumiyyətlə bələdçi yoxdur. Ekskursiya üçün müxtəlif həcmli avtobuslardan istifadə olunur. Onlar da Bakıdan gedir. Regionlarda belə bir avtoparkın mövcud olması mümkün deyil. Azərbaycana gələn turistlərin giriş qapısı tək Bakı olmamalıdır. Gəncə, Naxçıvan, Lənkəran hava limanlarından da istifadə olunmalıdır. Gələn turistlər bir neçə gün regionlarda gecələyib sonra Bakıya və digər rayonlarımıza səfərlər edə bilərlər. Bunun üçün də tur agentlikləri, operatorlar çalışmalıdır. Hotellər üçün əlverişli biznes şəraiti yaratmalıyıq".

## "EKOLOJİ TURİZM NÖVLƏRİNƏ DİQQƏT YETİRƏ BİLƏRİK"

Sədrin fikrincə, biz hələlik dünyadakı turizm fəaliyyətlərinə o qədər də diqqət yetirmirik. Hər bir regionun özünəməxsus mətbəxindən, təbii və mədəni irs nümunələrindən turizm məqsədləri üçün istifadə edə bilərik: "Həmçinin, yeni turizm məhsulları da yaradarıq. Bunun üçün həm təbii, həm də antropogen resurslardan istifadə etmək olar. Ölkəmizin hər bir guşəsində abidələr mövcuddur. Hətta bəziləri dünya mədəni irs siyahısına daxil edilib. Həmin resursları önə çəkməliyik. COP29-un təbiətin mühafizəsi ilə bağlı tədbir olmasını nəzərə alaraq, ondan sonra daha çox ekoloji turizm növlərinə diqqət yetirə bilərik".



Samir Dübəndi

**RƏQƏMLƏR QIŞ TURİZMİNƏ AİDDİR**

Turizm məsələləri üzrə ekspert Əziz Şiriyev bildirdi ki, ilk sırada yer alan hotellərə daha çox turist qış aylarında səfər edib: "Qış mövsümündə ölkəmizdə standartlara cavab verən üç qış və yay turizm kompleksi var. Bunlardan biri Qusarda, ikincisi Qəbələdə, üçüncüsü isə Naxçıvandadır. Onlarda kanat xətti, xizək qış idman növlərindən istifadə etmək olur. Xüsusən qış mövsümündə bu bölgələrə səfərlər daha çoxdur. Yaz və yay mövsümündə insanlar daha çox digər regionlara gedirlər".

**"İNSANLARIN ƏKSƏRİYYƏTİ KEYFİYYƏT İSTƏYİR"**

Ə.Şiriyevin fikrincə, rayon hotellərinin əksəriyyəti insanların istəklərini qarşılamır: "Hotellərin sayının çox olması və beş ulduz standartlarının az olmasını görürük. Əgər bu hotellərin rəqibləri olsa, həm qiymət siyasətinə təsir edəcək, həm də daha çox qonaqların gəlməsinə səbəb olacaq. Çünki insanların əksəriyyəti keyfiyyət istəyir. Bir çox qonaqlar qapalı və ya açıq hovuz, fitnes, spa, türk hamamı, yaxud iclas zallarının mövcudluğuna diqqət edirlər. Bəzi hotellər həm biznes, həm də spa yönümlüdürlər. Hər ikisinin olması həm işgüzar görüşlərin keçirilməsi, həm də ailələrin, yaxud gedən komandanın istirahəti üçün çox önəmlidir".

**"TOY ƏNƏNƏLƏRİMİZ TURİSTLƏR ÜÇÜN ÇOX MARAQLIDIR"**

Ekspert düşünür ki, regionlarımızda müxtəlif tədbirlər, festivallar keçirərək onları daha da tanıda bilərik: "Bu gün rayonlarımızın əksəriyyətində hotellərimiz var. Amma həmin hotellərdə qalanlar azdır, gedənlər əsasən şirkət, səhiyyə işçiləri olur və qısamüddətli qalırlar. Regionlarda keçirilən tədbirlərə Göyçayda nar festivalını, Qəbələdə mürəbbə festivalını, Biləsuvarda hind toyuğu festivalını misal göstərmək olar. Digər rayonlarda da bu kimi festivallar daha çox olsa, tədbirlər keçirilsə, turistləri həmin bölgələrə 1-3 günlük cəlb etmək mümkündür. Onlar rayonda qaldıqda hotellərdən də istifadə edəcəklər. İnsanlar yeniliklər, maraqlı tədbirlər istəyirlər. Hər bölgənin özünəməxsus musiqisi, adət-ənənəsi, mətbəxi, incəsənəti var. Təqdimatı olmalıdır ki, orada həm yerli, həm də xarici turistlər iştirak etsin. Bu, həm də mədəniyyətlərin inteqrasiyasıdır. Məsələn, toy ənənələrimiz, yaxud bayram adətlərimiz turistlər üçün çox maraqlıdır. Bunları etsək, rayonlarımıza turistləri daha çox cəlb etmiş olarıq. Bu, həmin regionların tanınmasına, oradakı iaşə obyektləri, hotellər, restoranlar, istirahət mərkəzlərinin inkişafına gətirib çıxarar".

# QAZANDIQLARI MEDALLARIN SAYINI İTİRİBLƏR



Foto: Global Media Group/Rüfət Mikayılov

“Olimpiadalara hazırlıq və qalibiyyət uzun yol qət etməyi tələb edir. Bu yolda uğursuzluq da olur. Əsl qalib qızıl medal alan deyil, bütün proseslərdə məğlub olsa belə, motivasiyadan düşməyən, davamlı iştirak edən, məqsədlərinə çatandır”.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Onlar məqsədləri uğrunda altıncı sinifdən mübarizə aparan məktəblilərdir. Həm dərslərinə hazırlaşır, həm olimpiadada qalib gəlmək üçün Elm və Təhsil Nazirliyi tərəfindən təşkil edilən kurslarda iştirak edirlər. Öz istedadları ilə seçilən şagirdlər 6-31 may tarixlərində Özbəkistanda iki mərhələdən ibarət Əl-Xarəzmi Beynəlxalq Riyaziyyat Olimpiadasında da fərqləniblər. Azərbaycan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Tacikistandan 135 şagirdin iştirak etdiyi olimpiadadan ölkəyə dörd qızıl medal gətirməyi bacarıblar.

Müsahiblərimiz Əl-Xarəzmi Beynəlxalq Riyaziyyat Olimpiadasında qızıl medalın sahibləri Kimya-biologiya təmayüllü Respublika liseyinin doqquzuncu sinif şagirdi Rəfiqə Qəmbərova, Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyinin doqquzuncu sinif şagirdi Zəhra İbişova, 287 nömrəli “Zəkalar” liseyinin səkkizinci sinif şagirdi Fərhad İskəndər, Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziyanın doqquzuncu sinif şagirdi Davud Tarverdili və onların komanda liderlərindən biri, qrup rəhbərləri Ləman Ağazadədir.

### DÖRD QIZIL, İKİ GÜMÜŞ, BİR BÜRÜNC...

Ləman Ağazadə deyir ki, məktəblilərimiz bu olimpiadadan ümumilikdə yeddi medal qazanıblar: “Əl-Xarəzmi Beynəlxalq Riyaziyyat Olimpiadası ilk dəfə ötən il keçirilib. Həmin il bizim komanda bir gümüş, üç bürünc medal əldə etmişdi. Bu il isə dörd qızıl, iki gümüş, bir bürünc olmaqla yeddi medal qazandıq”.

Komanda lideri bildirir ki, şagirdləri keçmiş olimpiadaçılar hazırlaşdırır: “Elm və Təhsil Nazirliyi tərəfindən şagirdləri olimpiadalara hazırlaşdırmaq üçün olimpiadalara hazırlıq mərkəzləri fəaliyyət göstərir. Bizim şagirdlər istedadlı və çalışqandırlar. Təbii ki, bu mərhələyə gəlmək üçün çox mərhələlərdən keçiblər”.

### “MEDALLARIMIN SAYINI UNUTMUŞAM”

Olimpiadada ən yüksək nəticəni Rəfiqə Qəmbərova göstərib. Rəfiqə deyir ki, anası riyaziyyatçı olduğu üçün bu fənn artıq onun həyat tərzinə çevrilib: “Altıncı sinifdə ilk qatıldığım fənn olimpiadasında bürünc medal qazandım. Aşağı siniflərdən riyaziyyat fənnində istedadıma görə seçilirdim. Bu istedadımı anamın dəstəyi ilə inkişaf etdirirəm. İlk qızılımı yeddinci sinifdə qazandım. Səkkizinci sinifdə də beynəlxalq olimpiadadan iki bürünc, bir qızıl almışdım. Əslində, medallarım çoxdur, amma sayını unutmuşam (gülür - A.Ə)”.



### “SƏHV ETMƏK ŞANSIMIZIN OLMADIĞINI DÜŞÜNÜRDÜM”

İkinci qızıl medalın sahibi Zəhra da uşaqlıqdan riyaziyyatın əhatəsində böyüdüyünü deyir: “İlk dəfə fənn müsabiqəsindən gümüş medal qazandım. Daha sonra mən də Rəfiqə kimi hər il olimpiadalara qatıldım. Medal qazanmaq üçün ciddi şəkildə hazırlaşırdım. Çünki ölkəmizi təmsil edirdim və səhv etmək şansımızın olmadığını düşünürdüm. Yeddinci sinifdə kimya olimpiadasından qızıl medal qazandım. Səkkizinci sinifdə iki gümüş, bu il isə iki qızıl medalım var. Hazırda altı medalımın olduğunu xatırlayıram. Bu yolda ən böyük dəstəkçim anamdır”.

Davud da həmyaşıdları kimi yaşının az olmasına baxmayaraq, öz otağını medalları ilə bəzəyib: “Riyaziyyat ən sevdiyim və ən rahat mənimsədiyim fəndir. Uşaqlıqdan bu marağım digərlərini üstələyib. Ailəm istedadımı kəşf etdikdən sonra məni olimpiadalara göndərirdi. Mən də altıncı sinifdə qızıl medal qazanmışam. Ümumilikdə, üç qızıl, bir gümüş, iki bürünc medalım var”.

Fərhad İskəndər isə onların arasında ən kiçiyidir. Səkkizinci sinifdə oxuyur, amma artıq iki qızıl, iki gümüş medala sahibdir: “İlk beynəlxalq olimpiadamda qızıl aldıqda özümə daha çox güvənməyə başladım”.

## “ƏSL QALİB QIZIL MEDAL ALAN DEYİL...”

Bu uğurların arxasında böyük zəhmət, həyəcanın olduğu danılmazdır. Rəfiqə deyir ki, olimpiadalara hazırlıq və qalibiyyət uzun yol qət etməyi tələb edir: “Bu yolda uğursuzluq da olur. Əsl qalib qızıl medal alan deyil, bütün proseslərdə məğlub olsa belə, motivasiyadan düşməyən, davamlı iştirak edən, məqsədlərinə çatandır”.

Zəhra: “Hər birimiz insanıq və yorulduğumuz anlar olur. Amma prosesə başlayarkən yorulacağımızı bilirdik. Uğur qazanmağın hər yaşda öz çətinlikləri var. Gərginliyə də hazır olmalıyıq. Təbii ki, istədiyini əldə etməyəndə, ruhdan düşmək də haqqındır. Amma özünə zaman verib davam etmək lazımdır”.

Davud: “Bəli, medallarımızı əldə etdikdə, bütün yorğunluğumuzu unuduruq”.

Fərhad: “Arada fasilə etmək lazımdır, amma əndazəni aşmaq olmaz. Qarşımıza hədəf qoymuşuqsa, bu hədəf uğrunda mübarizəmizi lazımsız işlərlə dayandırmaq, vaxtımızı əyləncəyə, yaxud yatmağa xərcləmək günahdır. Müəyyən qədər fasilədən sonra əvvəlki tempdə çalışmağa davam etməliyik. Məsələn, mən həm də piano ilə məşğul oluram. Beynim məsələni, misalı həll etməkdən yorulursa, piano arxasına keçirəm”.

Rəfiqə və Zəhra da pianoda ifa edir. Onlar da təsdiqləyir ki, beynin dincəlməyi üçün piano ən gözəl vasitələrdəndir: “Bəzən həll yolunu tapmayanda piano arxasına keçirik, qayıtdıqda, onu mütləq həll edirik”.

## “RİYAZİYYATDA OĞLANLAR QIZLARDAN GÜCLÜDÜR” TABUSU

Azərbaycanda qızlarda “riyazi narahatlıq” sindromu var deyirlər. Hətta cəmiyyətdə də “oğlanların riyaziyyat beyni qızlardan güclüdür” deyirlər. Bəs həmsöhbətlərimiz necə düşünürlər?

Davud bu fikirləri təsdiqləyir: “Özümüz də müşahidə edirik ki, bəzi qızlar bu sahədə oğlanlardan kifayət qədər güclüdür. Qızlar oğlanları dəfələrlə məğlub edirlər. Amma etiraf etməliyik ki, ümumi nəticələrə baxdıqda, riyaziyyat sahəsində məhz oğlanların uğurları çoxdur”.

Qrup lideri Ləman isə son dövrlərdə bu tabunu aşdığımızı bildirir: “10 il öncəyə qədər bu fikri mən də təsdiqləyərdim. Son vaxtlar bu statistika dəyişir. Hətta bəzən qızların qalibiyyətləri oğlanlardan daha çox olur. Məsələn, Avropa Qızlar Riyaziyyat Olimpiadasında (EGMO) öncəki illərdə biz medal ala bilmirdik. 2019-cu ildə Fidan Qarayeva ilə axır ki, bu uğursuz ənənəyə son qoyduq. Bundan sonra həmin olimpiadadan üç medal aldıq. Bu amillər qızları həvəsləndirdi və özlərinə inamı artdı. 10 il əvvəl ümumi riyaziyyat olimpiadalarında da komanda üzvləri oğlanlardan ibarət olurdu. İndi minimum iki-üç qız iştirak edir və medal qazanırlar”.

Rəfiqə: “Bəli, bu stereotip idi. İndi sosial şəbəkələrdə qızları həvəsləndirirlər, nazirliyin xüsusi dəstəyi olur və bu, nəticəsini göstərir. Qızlar əvvəl riyaziyyat sahəsində çalışmağa, olimpiadaya getməyə cəsarət etmirdi. İndi bir-birimizdən qüvvət alırıq və ümumi statistikanı da dəyişəcəyimizə inanırıq”.




Məlumat üçün bildirək ki, müsahiblərimiz 25 iyunda Türkiyənin Antalya şəhərində Yeniyetmələrin Balkan Riyaziyyat Olimpiadasında iştirak edəcəklər. Növbəti hədəfləri oradan da qızıl medalla qayıtmaqdır.

# KÖHNƏ AVTOMOBİLLƏRƏ ƏLVİDA

Gürcüstandan ölkəmizə gətirilən avtomobillərin sayında azalma müşahidə edilir. Ekspertlərin fikrincə, bunun səbəbi son dövrlər verilən qərarlar, həmçinin insanların seçiminin dəyişməsidir.



**GÜRGÜSTANDAN AVTOMOBİL İDXALI**

2024 YANVAR MART

2024 YANVAR MART — idxal 2 601 ədəd

2024 YANVAR MART — dəyər 48,457 mln dollar

2023 YANVAR MART — idxal 7 348 ədəd

2023 YANVAR MART — dəyər 99,683 mln dollar



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Bu ilin birinci rübündə Gürcüstan Azərbaycana 48,457 milyon dollar dəyərində 2 601 ədəd avtomobil ixrac edib. Lakin 2023-cü ilin ilk üç ayı ərzində Gürcüstan Azərbaycana 99,683 milyon dollar dəyərində 7 348 ədəd avtomobil ixrac etmişdi.

Gürcüstan Milli Statistika İdarəsindən bildirilib ki, cari ilin birinci rübündə Azərbaycana ixrac edilən avtomobillərin dəyəri illik müqayisədə 51,226 milyon dollar və ya 51,3 faiz, sayı isə 4 747 ədəd və ya 64,6 faiz azalıb. Biz statistikaya baxsaq görərik ki, bir neçə ildir Gürcüstandan ölkəmizə idxal edilən avtomobillərin sayında azalma müşahidə edilir. Lakin 64 faiz azalma böyük rəqəmdir. Bəs idxalın bu qədər azalması nəyin göstəricisidir? Artıq qonşularımızın maşınlarına ehtiyacımız yoxdur?

**Azərbaycana ixrac edilən avtomobillərin dəyəri illik müqayisədə 51,3% azalıb**

## SEÇİMLƏRİMİZ DƏYİŞİB

Azərbaycan Avtomobil Dilerləri Assosiasiyasının direktoru Eyyub Əliyev bildirdi ki, artıq ölkəmizə keyfiyyətsiz avtomobillər gətirilmir: "Ölkəyə gətirilən avtomobillərin sayı azalsa da, qiymət olaraq azalma müşahidə edilmir. Hətta artım olduğunu söyləyə bilərik. Bu da o deməkdir ki, ölkəyə gətirilən ucuz və keyfiyyətsiz avtomobillərin sayı azalıb. Deməli, daha bahalı və keyfiyyətli avtomobillər gətirilir. Bunun səbəbi avtomobil parkımızın yenilənməsi üzrə görülən işlərdir. Həmçinin köhnə avtomobillərdə problemlərin ortaya çıxması onlara olan marağı azaldıb. İdxal edilən köhnə avtomobillərin bazarda satışı da zəifləyib. Satılmadığı üçün alverçilər bu avtomobilləri gətirmirlər".

E.Əliyevin sözlərinə görə, Gürcüstandan gətirilən avtomobillərin sayının azalması yeni tendensiya deyil. Bu hal quru sərhədlərimiz bağlandıqdan bəri müşahidə edilir: "Lakin hazırda statistikada daha böyük rəqəmlər qeydə alınır. Səbəb taksi fəaliyyəti ilə məşğul olanlara tətbiq edilən yeni qaydalardır. Bunlar da idxala istər-istəməz öz təsirini göstərir".

## "YERLİ BAZARI ARTIQ ONLAR TƏMİN EDƏCƏLƏR"

Müsahibimizin fikrincə, idxal azaldığı üçün insanlar daha çox yerli istehsala yönəlirlər: "Naxçıvan, Hacıqabul və Neftçaladakı zavodlarımızda istehsal edilən avtomobillərə maraq arta bilər. Bu isə yerli istehsalın daha da inkişafı, stimullaşdırılması deməkdir. Yerli bazarı artıq onlar təmin edəcəklər. Bu da onlar üzərində yaranan əlavə məsuliyyətdir. Yerli istehsalımız özünü həm xidmətdə, həm də qiymətdə dəfələrlə sübut edib. Bu səbəbdən artıq insanlarımız da yerli istehsala güvənirlər. Əsasən də taksi fəaliyyəti ilə məşğul olan şirkətlər yeni qaydalardan sonra yerli istehsa-lımız olan avtomo-billəri almağa meylli-dirlər".

**Azərbaycana ixrac edilən avtomobillərin sayı illik müqayisədə 64,6% azalıb**

## "EKOLOGİYAMIZI DA QORUMUŞ OLACAĞIQ"

E.Əliyev qeyd etdi ki, köhnə avtomobillərin azalmasını müsbət qiymətləndirməliyik, çünki ekologiyamızı xilas edirik: "Gürcüstandan avtomobil idxalının azalması bazarımız üçün də sərfəlidir. Çünki bazara ucuz və keyfiyyətsiz avtomobillərin gətirilməsi heç kimə sərf etmir. Əksinə, hər kəsə lazımdır ki, ölkəyə daha keyfiyyətli və alıcılıq qabiliyyəti yüksək avtomobillər gətirilsin. Ölkəmizin də atdığı addımlarda məqsəd bundan ibarətdir. Bu sayədə həm də ekologiyamızı da qorumuş olacağıq".

## DAHA ÇOX ŞƏRQ ÖLKƏLƏRİNDƏN GƏTİRİLİR

Nəqliyyat eksperti Yasin Mustafayev bildirdi ki, insanların artıq elektromobillərə yönəlməsi dövrün tələbidir: "Gürcüstandan gətirilən avtomobillərin həm sayı, həm də dəyəri azalıb. Buna səbəb kimi son dövrlər elektromobillərə, hibrid avtomobillərə marağın artmasını göstərə bilərik. Avtomobil sahibi olmaq istəyənlər artıq bu yöndə qərar verirlər. Elektromobillər həm müasir, həm komfortlu, həm də ucuzdur. Bu səbəbdən də insanlar onu seçirlər. Bu, bütün dünyada gedən prosesdir. Elektromobil və hibrid avtomobillər isə daha çox şərq ölkələrindən gətirilir. Bu səbəbdən Gürcüstandan gətirilən maşınlara maraq azalıb".




Y.Mustafayevin sözlərinə görə, qeyd edilən statistik rəqəm zaman keçdikcə daha da artacaq: "Düşünürəm ki, gələcəkdə Gürcüstandan, Avropadan gətirilən avtomobillərin sayı daha da azalacaq. Bu tendensiyanın olması hər bir halda müsbətdir. Çünki bizə Gürcüstandan daha çox işlənmiş avtomobillər gətirilirdi. Onlar da avtomobil parkımızın yenilənməsi əvəzinə, əksinə, daha da köhnəlməsinə gətirib çıxarırdı. Hədəfimiz də ölkəyə ekoloji avtomobilləri gətirmək olduğu üçün azalması daha yaxşıdır".

## "AVTOMOBİL BAZARIMIZ YETƏRİ QƏDƏR DOLUB"

İqtisadçı Fuad İbrahimovun fikrincə, ola bilər ki, gələcək aylarda avtomobil idxalı daha da artsın: "Müəyyən bir dövrün statistikasına əsasən fikir söyləmək mümkün deyil. Bu dövrdə avtomobil az gətirilibsə, növbəti aylarda arta bilər. Gürcüstan avtomobillərin depolandığı ərazidir. Onların beynəlxalq limanına müxtəlif ölkələrdən avtomobillər gətirilir, sonra isə digər ölkələrə ixrac edilir. Gürcüstandan avtomobil idxalının azalması müsbət haldır. Çünki avtomobil bazarımız yetəri qədər dolub. Bu zaman idxal çox olduğu üçün satışda da müxtəlif məhdudiyyətlər yaranır".

## PAYTAXTIN KİRAYƏ MƏNZİL BAZARINDA QİYMƏTLƏR "ƏL YANDIRIR"

# Yay aylarında kirayə bazarında DƏYİŞİKLİK OLACAQMI?

Adətən yay aylarında tədris ilinin başa çatması ilə bağlı Bakının kirayə mənzil bazarında ucuzlaşma qeydə alınırdı. Lakin son illərdə bu tendensiya zəifləyib. Ekspertlər bu yay da ciddi ucuzlaşma proqnozlaşdırmırlar.

SEVİNC ABBASOVA

Paytaxtın kirayə mənzil bazarında qiymətlər "əl yandırır". Şəhərin mərkəzində birotaqlı mənzillərin qiyməti 600-800 manatdan başlayır. Elə ərazilər də var ki, orada ümumiyyətlə, kirayə ev tapmaq qeyri-mümkündür. Amma tələbələrin yay tətilinin başlaması ucuz qiymətə kirayə mənzil axtaranları sevindirə bilər. Ekspertlərin fikrincə, tələbələrin tətilə yollanması bazarda qiymətlərlə bağlı dəyişikliyə səbəb olacaq.

Bəs, görəsən, tələbələrin gedişi bazarda ciddi ucuzlaşmaya gətirib çıxaracaqmı? Hazırda paytaxtın daha çox hansı ərazilərində kirayə mənzillərə tələbat var? Mənzillər və bağ evləri aylıq neçəyə təklif olunur?



### "KİRAYƏ MƏNZİL BAZARININ TƏKLİF PORTFELİ AZALIB"

"Azərbaycan Rieltorlar Assosiasiyası"nın direktoru, daşınmaz əmlak üzrə ekspert Elnur Azadov deyib ki, əslində son illərdə kirayə mənzil bazarının təklif portfeli xeyli azalıb. Bunun başlıca səbəbi Bakı şəhərində pilot layihələr üzrə söküntü işlərinin aparılmasıdır: "Ötən illərə qədər tələbələrin yay tətilinin başlaması kirayə mənzil bazarına daha ciddi təsir göstərirdi. Amma Bakı şəhərində pilot layihələr üzrə söküntülərə başlandıqdan sonra vəziyyət tamamilə dəyişib. MTK-lar köhnə çoxmənzilli binalarda yaşayan sakinlərə yeni tikili binalardan mənzillər təhvil verilən günə qədər, yəni ortalama iki il müddətində kirayə pulu verirlər. Evləri plana düşən sakinlər kirayə üçün uzunmüddətli mənzillər götürürlər. Bu da bazarın təklif portfelinə istər-istəməz təsir göstərir. Bu baxımdan tələbələrin gedişi bazarda maksimum 15-20 faiz ucuzlaşmaya gətirib çıxara bilər".




Elnur Azadov

### TƏLƏBƏLƏR DAHA EHTİYATLI DAVRANIRLAR

Ekspertin sözlərinə görə, bazarda təklif portfelinin azalması tələbələri də bir qədər ehtiyatlı davranmağa vadar edib: "Müşahidələr göstərir ki, hansı tələbələr növbəti tədris ilində Bakıda qalacaqsa, onlar adətən kirayə yaşadıqları ev sahibi ilə razılığa gəlirlər. Nəticədə həmin evlər boş qalmır. Əvvəllər belə hallar olmurdu, tələbələrin çoxu evləri boşaldıb tətilə yollandığından qiymətlər düşürdü. Avqust-sentyabr ayına doğru isə tələb artırdı və qiymətlər yüksəlirdi. İndi isə evlər boş qalmadığı üçün kirayə mənzil bazarında ciddi qiymət azalması müşahidə olunmur".

### BAKIƏTRAFI ƏRAZİLƏRDƏ BAĞ EVLƏRİNƏ TƏLƏBAT ARTACAQ

E.Azadov bu yay Bakıətrafı ərazilərdə yerləşən bağ evlərinə tələbatın yüksək olacağını da bildirib. Onun sözlərinə görə, Qəbələ və İsmayıllı istiqamətində yol təmiri bu zonalara getmək istəyənlərin sayını azaldacaq. Nəticədə Bakıətrafı ərazilərdə aktivlik müşahidə ediləcək: "Bu gün bazarda hər qiymətə bağ evləri mövcuddur. Qiymətlər tələbata uyğun tənzimlənir. Əslində pandemiya dövründə qapanmaya görə bağ evləri daha çox kirayə götürüldüyündən bir çox iş insanı bu sahəyə investisiya yatırmağa başladı. Bunun nəticəsində kirayə verilən bağ evlərinin sayı 25-30 faiz artdı. Eyni zamanda, bahalı evlərin sayı da çoxaldı. Amma bazarda təklif portfelinin artmasına baxmayaraq, qiymətlər ucuzlaşmadı. Çünki tələbat yüksəkdir. Təklif olunan bağın dənizə yaxınlığı, infrastrukturun yaxşılığı, hovuzun olması isə artıq üstünlük deməkdir. Hazırda bazardakı evlərin əksəriyyətinin aylıq kirayəsi 3 000-9 000 arasında dəyişir. Hətta elə evlər var ki, aylıq 15 000-20 000 manata təklif olunur. Müştərilər Mərdəkan, Şüvəlan, Bilgəh və Naradaran kimi ərazilərə daha çox üstünlük verirlər".

## ÖTƏN AY BAZARDA QİYMƏT ARTIMI QEYDƏ ALINIB

"MBA Group" konsaltinq şirkətinin baş direktoru Nüsrət İbrahimov bildirib ki, ötən ay kirayə bazarına təklif edilən mənzillərin sayı 944 ədəd olub: "Bu, aprel ayı ilə müqayisədə 0,11 faiz artım deməkdir. Ötən ilin eyni dövrü ilə müqayisədə 7,64 faiz artım müşahidə olunub. Qiymətlərə gəlincə, ümumi mənzil hesabı ilə orta qiymət 853 manatdan artaraq 859 manat olub. Başqa sözlə, ay ərzində 0,7 faiz artım qeydə alınıb. İl ərzində isə 0,82 faiz artım baş verib. O cümlədən birotaqlı mənzillərdə ay ərzində 3,32 faiz, ötən ilin eyni dövrü ilə müqayisədə 4,94 faiz azalma qeydə alınıb. İkiotaqlı mənzillərdə 4,53 faiz, ötən ilin eyni dövrü ilə müqayisədə 10,14 faiz artım müşahidə olunub. Üçotaqlılarda ay ərzində 6,64 faiz, ötən ilin eyni dövrü ilə müqayisədə 4,44 faiz artım baş verib. Dörd və daha çox otaqlılarda ay ərzində 6,3 faiz, ötən ilin eyni dövrü ilə müqayisədə 2,02 faiz artım qeydə alınıb".

Ekspertin fikrincə, tələbələrin gedişi kirayə mənzil bazarında qiymətlərə ciddi təsir göstərməyəcək. Onların əksəriyyəti mənzilləri boşaltmadığından bazarda maksimum 1-2 faiz ucuzlaşma qeydə alına bilər.


Nüsrət İbrahimov

## "YASAMAL, NƏSİMİ BAZARI İSTİQAMƏTİ AKTİV ZONA SAYILIR"

Rieltor Mülkədar Rüstəmov isə vurğulayıb ki, son iki ildə kirayə mənzil bazarında qiymətlər təxminən 20 faizə yaxın artıb. Onun sözlərinə görə, hətta elə ərazilər var ki, kirayə mənzil tapmaq müşkülə çevrilib. Ekspert qeyd edib ki, son vaxtlar yeni tikilən çoxmənzilli binalarda təklif edilən kirayə evlərə tələbat artıb: "Köhnə binalarda şərait yaxşı olmadığından kirayə mənzil götürmək istəyənlər daha çox yeni binalardakı təkliflərlə maraqlanırlar. 2000-ci ildən sonra tikilən, mərtəbə sayı az olan binalarda mənzil axtaranlar daha çoxdur. Hazırda Yasamal zonası, xüsusilə metronun "Elmlər Akademiyası" stansiyasının ətrafı, Nəsimi bazarı istiqaməti aktiv zona sayılır. Tələbat daha çox 2-3 otaqlı mənzillərədir. Qiymətlərə gəlincə, yerləşdiyi ərazidən asılı olaraq, hazırda birotaqlı mənzillərin aylıq kirayəsi 350-400, ikiotaqlı 500-650, üç otaqlılar isə 700 manatdan başlayır".


Mülkədar Rüstəmov

M.Rüstəmov son illər çoxmənzilli binalarla yanaşı, bağ evlərində də kirayə qiymətində artımın müşahidə edildiyini bildirib: "Bağ evləri təxminən 10 faiz bahalaşıb. Bakıətrafı ərazilərdən daha çox Novxanı, Mərdəkan, Buzovna bağlarına tələbat var. Mərdəkan və Buzovna ilə müqayisədə Novxanıda qiymətlər nisbətən ucuzdur. Hazırda qiymətlər günlük 50-100 manat arası dəyişir. Amma elə ərazilər də var ki, günlük kirayə qiymətlər 150-200 manatdan başlayır".

# SOCAR VƏ "BAKER HUGHES" ƏMƏKDAŞLIQ EDƏCƏK

İmzalanmış sazişə əsasən, Azərbaycan ərazisində mərkəzdənqaçma elektrik dalma nasoslarının yığılması, təmiri və texniki servis işlərinin aparılması həyata keçiriləcək. Bu məqsədlə yeni mərkəz yaradılacaq.

Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ilə "Baker Hughes" şirkəti arasında Əməkdaşlıq Sazişi imzalanıb. Bu barədə "Report"a SOCAR-dan bildirilib. SOCAR-ın prezidenti Rövşən Nəcəf və "Baker Hughes" şirkətinin prezidenti, baş icraçı direktoru Lorenzo Simonelli tərəfindən imzalanan sənədə əsasən, Azərbaycan ərazisində mərkəzdənqaçma elektrik dalma nasoslarının (MEDN) yığılması, təmiri və texniki servis işlərinin aparılması həyata keçiriləcək.



Saziş çərçivəsində SOCAR-ın "Azneft" İstehsalat Birliyi ilə "Baker Hughes Services International" MMC arasında əldə olunan razılaşmaya əsasən, MEDN-lərin yığılması məqsədilə yeni mərkəz yaradılacaq. Hazırlıq işlərinin bir hissəsi olaraq, ilkin mərhələdə 50 MEDN dəstinin Azərbaycana çatdırılması razılaşdırılıb.

Tətbiq ediləcək innovativ yanaşma prosesləri sadələşdirməklə yanaşı, səmərəliliyi və məhsuldarlığı artıracaq. Yeni texnologiyadan istifadə nəticəsində keçmiş nəsil dalma nasoslarının yaratdığı çətinliklər, o cümlədən təmirlə bağlı hasilat fasilələrinin çoxalması və məhsuldarlığın azalmasının qarşısı alınacaq. İnnovativ yanaşma dalma nasoslarına müstəsna etibarlılıqla işləməyə imkan verərək, onların istismar müddətini dəfələrlə artıracaq.

Strateji əməkdaşlıqlar və tərəfdaşlarla aparılan təcrübə mübadilələri, həmçinin innovativ yanaşmaların, yeni texnologiyanı tətbiqi sayəsində SOCAR fəaliyyətini daha da təkmilləşdirməyi və daha yeni nailiyyətlər əldə etməyi hədəfləyir.

# AZERCONNECT VƏ VODAFONE ARASINDA TƏRƏFDAŞLIQ MÜQAVİLƏSİ İMZALANIB

Azərbaycanda İKT və yüksək texnologiyalar sahələrində fəaliyyət göstərən Azerconnect Group və dünyanın aparıcı telekommunikasiya şirkəti Vodafone Group arasında tərəfdaşlıq müqaviləsi imzalanıb.

Tərəfdaşlıq müqaviləsi Azerconnect Group-un rəqəmsallaşma, təhlükəsizlik əməliyyatları mərkəzi, şəbəkə texnologiyaları və kommersiya xidmətləri kimi mühüm sahələr üzrə təkmilləşdirmə işlərini sürətləndirəcək. Vodafone ilə tərəfdaşlıq Azerconnect Group-a biznesin səmərəliliyini daha da artırmaq və əlavə dəyər yaratmaq imkanı verəcək.

Azerconnect Group-un Baş direktoru Emil Məsimov bildirib:




"Azerconnect Group Azərbaycanda uğurlu fəaliyyət tarixi olan ən böyük İKT şirkətidir. Bu tərəfdaşlıq sayəsində biz Vodafone-un zəngin qlobal telekommunikasiya təcrübəsindən faydalana bilərik. Hesab edirəm ki, bu tərəfdaşlıq ölkəmizin İKT sektorunun dayanıqlı inkişafına ciddi təkan verəcək".

Vodafone-un Tərəfdaş Bazarları üzrə Baş İcraçı direktoru Petr Dvorjak əlavə edib: "Azerconnect Group innovativ şirkətdir və Azərbaycan bazarında liderdir. Tərəfdaşlıq çərçivəsində, telekommunikasiya və biznes texnologiyaları sahələri üzrə təcrübəmizi bölüşmək və müştərilərə göstərilən xidmət keyfiyyətinin artırılması istiqamətində işlərə başlamağı səbirsizliklə gözləyirik".




# "Bakcell"in dəstəyi ilə "Google AI Hackathon" baş tutub

"Bakcell"in rəsmi sponsorluğu və Tech Academy-nin təşkilatçılığı ilə Azərbaycanda ilk dəfə "Google AI Hackathon" baş tutub. IDDA-nın ev sahibliyi etdiyi innovasiya və yüksək texnologiyaları təmsil edən tədbir, yaradıcı beyinləri, süni intellekt həvəskarlarını, developer və proqramçıları bir araya toplayıb. "Google"un möhtəşəm Sİ platforması olan "Gemini"dən istifadə edərək yenilikçi həllər tapmağa çalışan 21 komanda 2 gün ərzində qalibiyyət üçün yarışıb.

"Bu möhtəşəm tədbirin Bakıda keçirilməsi Azərbaycanın texnologiya sahəsindəki liderliyini və innovasiyaya olan dəstəyimizi təmsil edir. Komandaların nümayiş etdirdikləri yaradıcılıq və istedad həqiqətən ilhamverici idi. Bugünkü tədbiri dəstəklədiyimiz kimi, Azərbaycanın parlaq gənclərinin də hər zaman yanındayıq", - deyə "Bakcell"in Baş İcraçı Direktoru Klaus Müller bildirib.

"Bakcell" əməkdaşının da təmsil etdiyi münsiflər heyətinin qərarına əsasən 2-ci günün sonunda hakatonun qalibləri təyin olunub. "CODAGE" adlı komanda 1-ciliyə layiq görülərək 3 000 AZN, 2-ci yeri tutan "JOSUA VERSE" komandası 2 000 AZN, "LİBRA VƏ SPARK" komandası isə 3-cülüklə 1 000 AZN dəyərində pul mükafatı qazanıblar.

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Könül Cəfərli, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 1323
Tiraj: 2250
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# AZƏRBAYCAN TEATRININ KRALİÇASI



Tanınmış aktrisa, Xalq artisti Amaliya Pənahova plastikası, səsinin məlahəti, yaratdığı obrazların gözəlliyi ilə tamaşaçılarını ovsunlayırdı. Sənət dostları onun fitri istedadını, qayğıkeşliyini, işinə vurğunluğunu indi də unuda bilmirlər.

HAZIRLADI

Təranə Məhərrəmova
taranamaharramova@kaspi.az

O axşam salon insanlarla dolu idi. Teatrsevərlər Lənkəran şəhər Mədəniyyət Sarayında İlyas Əfəndiyevin "Büllur sarayda" pyesi əsasında hazırlanan eyniadlı tamaşaya böyük maraqla baxırdılar. Tamaşada baş rolda - Aynur rolunda Xalq artisti Amaliya Pənahova oynayırdı. Aktrisa büllur sarayın göz qamaşdıran dəbdəbəsində nakam sevginin iztirablarını elə həssaslıqla çatdırırdı ki, gözlər səhnəyə dikilib qalmışdı. Tərəf müqabili - Həbib rolunun ifaçısı isə mərhum Xalq artisti Əliabbas Qədirov idi. Aktrisanın plastikası, səsinin məlahəti, obrazının gözəlliyi salondakıları ovsunlamışdı. Və o zaman həmin tamaşaçıların arasında bu sətirlərin müəllifi də vardı... Onda inanmazdım ki, efirdən oyununu heyrətlə izlədiyim aktrisanı gün gələcək səhnədən daim canlı izləmək, daha sonralar onunla ünsiyyətdə olmaq imkanım olacaq. Günlərin birində müsahibim kimi mənimlə xatirələrini vərəqləyəcək... Və yenə də bir gün - Amaliya xanımın doğum günü ərəfəsi (iyunun 15-i- T.M.) aktrisanı sənət dostları ilə yenidən yad edəcəyik...



### "O, ƏVƏZOLUNMAZ TƏRƏF-MÜQABİL İDİ"

"Amaliya xanımı ikinci kursda oxuyanda teatra dəvət etdilər", - deyə Xalq artisti Rasim Balayev xatırlayır: "Sən həmişə mənimləsən" tamaşası böyük hadisə oldu. Onda instituta daxil olmamışdım. "Səhnəyə belə bir istedad gəlib", - deyə Amaliya xanım haqqında oxuyurdum. O, elə-belə gəlmədi, böyük təntənə ilə gəldi. Uzun müddət Azərbaycan teatrında əsas rolları oynadı. Onda həm aktrisalıq qabiliyyəti gözəl idi, həm də rejissorluq qabiliyyəti vardı. Televiziyada tamaşalar hazırladı. Öz teatrını - Bələdiyyə Teatrını qurdu. Bu teatrın səhnəsində bir-birindən gözəl tamaşalar hazırladı. Amaliya xanım Bələdiyyə Teatrını quranda çox əziyyət çəkdi".

R.Balayev aktrisanın kino fəaliyyətinə toxunur: "Bizim tərəf-müqabilliyimiz əsasən "Babək" filmində oldu. Ona qədər bir neçə epizodik rollarımız olmuşdu. Məsələn, "Arxadan vurulan zərbə" filmində çəkilmişdik. "Babək"də Zərnisə rolunu oynadı. Bu, çox ağır və məsuliyyətli işimiz oldu. Amaliya xanımın bir aktrisa kimi böyük imkanları vardı. Çox adamlarda, heç özümdə də bunu görməmişəm. O, çox məsuliyyətli və zəhmətkeş idi. Əsl sənət fədaisi idi. Bir dəfə soruşdum ki, sən teatrda, kinoda bu qədər işləyirsən, bəs uşaqları kim saxlayır, ev-eşiyi kim təmizləyir? Yaqin qulluqçunuz var... Dedi ki, yox, mən hər işi özüm görürəm. İşdən sonra ev işləri ilə məşğul oluram, uşaqlarıma baxıram". R.Balayev deyir ki, Amaliya xanımla tərəf-müqabil olmaq böyük sevinc idi: "Onun aurasından insan özünü səfərbərliyə alırdı və istəyirdi ki, onun tələb etdiyi kimi oynasın, daha da məsuliyyətli olsun. Bu mənada o, əvəzolunmaz tərəf-müqabil idi. Son vaxtlar xəstə idi, amma heç kimə bildirmirdi. Mən də xəbərsiz idim. Ancaq onda həyat eşqi davam edirdi. Mən Türkiyədə müalicədə olarkən onun ölüm xəbərini eşitdim. Düzü, çox sarsıldım..."

> *"Amaliya xanımın bir aktrisa kimi böyük imkanları vardı. Çox adamlarda, heç özümdə də bunu görməmişəm. O, çox məsuliyyətli və zəhmətkeş idi. Əsl sənət fədaisi idi."*

### "ANADAN AKTRİSA DOĞULMUŞDU"

Rejissor, Xalq artisti Mərahim Fərzəlibəyov Amaliya Pənahova ilə uzun illər birlikdə çalışdığını deyir: "Amaliya xanımla ilk görüşüm 1981-ci ildə İlyas Əfəndiyevin "Xurşudbanu Natəvan" əsərində oldu. Bu pyes müəllif tərəfindən Amaliya xanıma həsr olunmuşdu. Amaliya xanım həmin illərdə teatrdan getmişdi, lakin o əsərlə yenidən teatra qayıtdı. Xan qızı Natəvan obrazını da çox gözəl oynadı. Rəssamlar Xan qızının şəkillərini çəkəndə çalışırdılar ki, çəkdiklərini Amaliya xanımın surəti ilə uyğunlaşdırsınlar".

Rejissor deyir ki, ilk əməkdaşlıqdan sonra aktrisa bir-birinin ardınca onlarla quruluş verdiyi əsərdə rol alıb: "Amaliya xanımın bütün obrazları teatrda böyük hadisəyə çevrilirdi. Onun heç bir zəif tamaşası olmadı. Sonra o həyat yoldaşı Yusif Muxtarovla birlikdə Bakı Bələdiyyə Teatrını yaratdı. Bu gün də bu teatr tamaşaçıları öz tamaşaları ilə sevindirir. Onun ölümündən sonra qızı Aynur xanım məni teatra dəvət etdi. Onun xatirəsinə "Xan qızı" əsərinin bir neçə qolunu Amaliya xanımın xatirəsinə həsr etmişik. Amaliya xanımın doğum və anım günlərində məhz o tamaşanı təqdim edirik". M.Fərzəlibəyov aktrisanın böyük sənətini səciyyələndirən xüsusiyyətlərindən də danışır: "Amaliya xanım təbii aktrisa idi. O, anadan aktrisa doğulmuşdu. Ona səhnədə yalnız mizan vermək lazım idi. Onda fenomenal bir istedad vardı. Amaliya xanım təkrarolunmaz səsə malik aktrisa idi. Həmçinin onun gözəl musiqi duyumu vardı. Bir sıra tamaşalarımda, xüsusən "Təhminə və Zaur"u hazırlayanda Təhminənin beş mahnısını özü ifa etmişdi. O, hərtərəfli aktrisa idi. "Sən həmişə mənimləsən"dəki Nargilə obrazından sonra İlyas Əfəndiyev əsərlərində daim Amaliya xanım üçün xüsusi obrazlar nəzərdə tuturdu. Amaliya xanım hər bir qəhrəmanının əzablarını, sevinc və kədərini həqiqi mənada yaşayırdı".

### "BİZ ONDAN HƏM DƏ HƏYAT DƏRSİ ALIRDIQ"

Əməkdar artist, Bakı Bələdiyyə Teatrının aktrisası Hüsniyyə Mürvətova bir aktrisa kimi Amaliya xanımdan çox şey öyrəndiyini deyir: "Amaliya xanımın özü bir məktəb idi. Əslində şansımız gətirmişdi ki, belə bir sənətkar bizim rəhbərimiz idi. Təkcə səhnədə deyil, həyatda da bizim üçün nümunə idi. Biz ondan həm də həyat dərsi alırdıq. Elə bir aktrisa ilə bir səhnəni bölüşmək, ya onun rejissoru olduğu bir tamaşada iştirak etmək, birlikdə səfərə getmək, udduğu havanı udmaq bizim şansımız idi. Özümü şanslı sayıram ki, bu teatrın aktrisasıyam və Amaliya xanımın məktəbini keçmişəm. Mən həmişə ona "Teatr kraliçası" demişəm. Amaliya xanım həm də çox gözəl dost idi".

H.Mürvətova deyir ki, Bələdiyyə Teatrına məhz Amaliya xanımın dəvəti ilə gəlib: "O, mənə inandı və "Tomrisin monoloqu"nu mənə tapşırdı. Hətta öz kostyumunu verdi. Sevinirəm ki, bu gün də bu teatr fəaliyyətini uğurla davam etdirir. Bu, Amaliya xanımın xatirəsinə böyük ehtiramdır".





Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
15 İYUN ŞƏNBƏ 2024
www.kaspi.az




# YIĞMAMIZDA FERNANDU SANTUŞ DÖVRÜ



Baş məşqçi vəzifəsinə tanınmış portuqaliyalı mütəxəssis Fernandu Santuş gətirilib. Onunla 3+1 illik müqavilə imzalanıb. Bakıda keçirilən təqdimat mərasimində yeni baş məşqçi iddialı açıqlamalar verib, uğur vəd edib.

Futbol üzrə Azərbaycan millisinin yeni baş məşqçisi müəyyənləşib. AFFA-nın İcraiyyə Komitəsinin onlayn formatda keçirilən iclasında yeni baş məşqçi ilə əlaqədar qərar qəbul edilib. Baş məşqçi vəzifəsinə tanınmış portuqaliyalı mütəxəssis Fernandu Santuş gətirilib. Onunla 3+1 illik müqavilə imzalanıb. Müqavilənin maliyyə tərəfi açıqlanmayıb. AFFA-nın yaydığı məlumatda bildirilir ki, seçim edilərkən əsas məqamlar uzunmüddətli əməkdaşlığa, uşaq futbolunun inkişafına yönəldilib: "Bu xüsusda Fernandu Santuşun dünyanın tanınmış futbol mütəxəssislərindən biri kimi zəngin təcrübəsi, peşəkar fəaliyyəti dövründə qazandığı uğurlar, o cümlədən Portuqaliya yığması ilə Avropa çempionluğu nəzərə alınaraq Azərbaycan milli komandasının baş məşqçisi təyin olunması barədə qərar qəbul edilib". Portuqaliyalı mütəxəssisin qarşısında rəqabətədavamlı komandanın formalaşdırılması və AVRO-2028-in seçmə mərhələsində uğurlu çıxış məqsədi qoyulub".

AFFA-nın İcraçı vitse-prezidenti Sərxan Hacıyev yeni baş məşqçinin təqdimat mərasimində deyib ki, təyinat zamanı bir sıra məqamlar nəzərə alınıb.

### "İNANIRAM Kİ, TARİXİ NƏTİCƏLƏRƏ İMZA ATACAĞIQ"

Azərbaycan milli komandasının yeni baş məşqçisi Fernandu Santuş da ilk mətbuat konfransında iddialı açıqlamalar verib. O, Azərbaycan millisindəki fəaliyyətinin uzunmüddətli layihə olduğunu bildirib: "Mənim məşqçi heyətim, AFFA, eləcə də sizlərlə birlikdə biz böyük uğura nail olub, tarix yaza biləcəyik. Bunun üçün klublarla da birlikdə əl-ələ verib işləmək çox önəmlidir. İnanıram ki, tarixi nəticələrə imza atacağıq. Ümid edirəm ki, Azərbaycan millisi rəhbərliyim altında hansısa böyük yarışa yollanacaq".

### "İŞƏ CİDDİ YANAŞMAQ İSTƏYİRİK"

Santuş qeyd edib ki, qonşu Gürcüstan millisinin böyük turnirdə iştirakı Azərbaycan üçün motivasiyadır: "Qazaxıstan da Avropa çempionatına vəsiqə qazanmağa yaxın idi. Hədəf də odur ki, 2028-ci ildə böyük miqyaslı turnirə vəsiqə qazanaq. Bunun üçün hər bir şərait var. Sizin də dəstəyiniz çox önəmlidir. Xalqın inamı, dəstəyi də, həmçinin. Uğur ani olaraq göydən düşmür. Uzunmüddətli layihələrlə həyata keçirilir. Təəssüf ki, əvvəlki seçmə mərhələlərdə bunun üçün cəhd edilib, amma alınmayıb. Mənim üçün də motivasiya odur ki, bunu dəyişim. Ümid edirəm ki, bu, bizdə alınacaq. Onu da qeyd edim ki, heyətimlə burada, Azərbaycanda yaşayacağıq. AFFA ilə layihəni həyata keçirmək üçün burada yaşayıb, ölkənin mədəniyyəti ilə də tanış olacağıq. Bizim işimiz gəlib oyunları yola verib, öz ölkəmizə qayıtmaq deyil. İşə ciddi yanaşmaq istəyirik".

## ZƏNGİN KARYERAYA MALİK MÜTƏXƏSSİS

Qeyd edək ki, Fernado Santuş zəngin karyeraya malik bir mütəxəssisdir. Ronaldolu Portuqaliyaya Avropa çempionluğu, digər titul və medallar qazandırıb. Onun yığmalarla işi Portuqaliya ilə yekunlaşmayıb. Bir müddət Yunanıstan yığmasını çalışdırıb, bundan sonra Polşa yığmasına rəhbərlik edib. Azərbaycanın futbol azarkeşləri isə onu daha çox Türkiyədə - "Beşiktaş"dakı fəaliyyəti ilə tanıyırlar. Portuqaliyalının son iş yeri də məhz İstanbul klubu olub.

## PORTUQALİYALI OLMASI ÜSTÜNLÜKDÜR




Belə zəngin karyeraya malik bir mütəxəssisin Azərbaycan yığması ilə hansı qrafiki cızacağı maraq doğurur. Tanınmış məşqçi, AFFA yanında Məşqçilər Şurasının üzvü Ağasəlim Mircavadov hesab edir ki, Fernandu Santuş təcrübəli məşqçidir. Bundan əlavə, onun portuqaliyalı olması da bizim üçün üstünlükdür. Çünki Azərbaycan futbolu bir növ Portuqaliya, İspaniya futboluna yaxındır. Bu baxımdan mütəxəssis əmindir ki, Santuş yığmanın sabiq baş məşqçisi Canni de Byazidən daha uğurlu nəticələr qazanacaq: "Fernandu Santuş təcrübəli mütəxəssisdir, Portuqaliya millisi ilə uğur qazanıb. Amma bir şey var ki, o, Portuqaliya yığmasında liderlərlə işləyirdi. Bizdə isə tam başqa işlər görməlidir. Vallah, mən düşünürəm ki, Fernandu Santuş Canni de Byazidən uğurlu olar".

Sabiq futbolçu Aslan Kərimov isə deyib ki, bu təyinat onun üçün sürpriz olub. O, 70 yaşlı mütəxəssisin millidəki işinin çətin olacağını söyləyib: "Fernandu Santuşun savadına, təcrübəsinə yəqin ki, dünyada heç kimin şübhəsi olmaz. Burada əsas məsələ odur ki, onun bizimlə işləməyə enerjisi çatacaqmı? Milli elə bir komandadır ki, burada çox işləmək, futbolçularla əlaqədə olmaq lazımdır".


Aslan Kərimov


Ağasəlim Mircavadov